# Xalq qəzeti

Xalqın qəzeti!

№ 172 (30576) 14 avqust 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## "Xalq qəzeti" – xalqın qəzeti

**İki il əvvəl "Xalq qəzeti"nin 103 yaşının tamamına 15 gün qalmış nəşrin 30 mininci sayı işıq üzü görmüşdü. Bu, Azərbaycan milli jurnalistikasında rekord göstərici idi. 15 gün sonra isə qəzetimiz üçün əlamətdar günün işığına yığacağıq.**



İki il əvvəl tarixi rekordu qeyd edirdiksə, indi yubiley kimi sayıla biləcək rəqəmə doğru yön alırıq. Beləliklə, avqustun 29-da "Xalq qəzeti"nin 105-ci ildönümüdür. İlk anadilli qəzetimiz olan "Əkinçi"nin nəşrə başlamasından 44 il sonra işıq üzü görmüş mətbuat orqanı fasiləsiz buraxılışına görə ölkənin ən qocaman qəzeti statusundadır.

"Xalq qəzeti" 72 il oxucularının görüşünə "Kommunist" adı ilə gəlmişdi. Fəaliyyəti, əsasən, eyniadlı ideologiyanın təbliğinə əsaslanmışdı. Lakin 105 illik tarix göstərir ki, nəşr cəmiyyəti düşündürən hadisə və prosesləri əhatəli işıqlandırması ilə kütləvi yayım qazanmış, məhz xalqın qəzeti olduğunu sübuta yetirmişdi. Elə buna görədir ki, 1991-ci ildə sovet rejiminin çöküşü əsnasında "Xalq qəzeti" öz adına sahiblənmişdi. Belə bir sahiblənmənin kökündə həm məntiq, həm də qəzetin yenilikçi düşüncəli mübariz kollektivinin xalq üçün xidmət amalına köklənişi dururdu.

(ardı 3-cü səhifədə)

# Azərbaycanın yüksəliş marafonu davam edir

## 7 ayda 70 milyard 544 milyon manatlıq ÜDM istehsal olunub



**Media Təhlil Mərkəzinin (MTM) Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi göstəricilər əsasında apardığı araşdırmaya görə, son 5 ildə Azərbaycanda ümumi daxili məhsul (ÜDM) istehsalı üzrə ən yüksək artım 2022-ci ildə qeydə alınıb.**

Həmin ilin yanvar–iyun aylarında ÜDM istehsalı 63,4 milyard manat təşkil edib ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 58,7 faiz və ya 23,5 milyard manat çox olub. Belə yüksək göstəricini isə neft-qaz məhsulları üzrə qiymətlərin dünya bazarında artması şərtləndirib.

(ardı 7-ci səhifədə)

## Bakı–Tehran münasibətlərini pozmaq istəyənlər yanılırlar

**Siyasətçi və konfliktoloqlar deyirlər ki, anamız Yer kürəsi Üçüncü Dünya müharibəsinin astanasındadır. Bunu çoxsaylı müharibə və münaqişələr də sübut edir, bəzi siyasi mərkəzlərdən gələn sərt bəyanatlar da.**



Çox təəssüf ki, beynəlxalq aləmdəki ən kəskin münaqişələrdən biri bizim regionda – min illərdən bəri eyni məkanda yaşayaraq dostluq və tərəfdaşlıq etdiyimiz İran İslam Respublikası ilə müstəqilliyimizi bərpa etdiyimiz ilk illərdən etibarən strateji tərəfdaşımız olan dost İsrail arasındadır. Hər gün müxtəlif ünvanlardan yersiz suallar eşidirik ki, müharibə başlayacağı təqdirdə Azərbaycan kimin tərəfində olacaq? Təbii ki, heç birinin. Azərbaycan onların düşmən yox, dost olmasını istəyir.

(ardı 4-cü səhifədə)

## Haylar üçün "mənganə"

**Cənubi Qafqazı eskalasiya meydanına çevirmək cəhdləri göz qabağındadır. Bu cəhdləri edənlər üzdə ermənipərəst qüvvələr kimi görünmələrinə baxmayaraq, alt qatda, aydın məsələdir ki, söhbət "böyük güclər" arasında bölgədə maraq və təsir uğrunda gedən amansız qarşıdurmadan gedir.**

Görünən odur ki, tərəflər qarşıdakı geosiyasi "savaşdan" qalib ayrılmaq üçün arsenallarındakı bütün diplomatik, hərbi-siyasi vasitələrdən istifadə etmək niyyətindədirlər.

(ardı 4-cü səhifədə)

# MSK şəffaf fəaliyyət göstərir



Səhifə ⇨ 5

# Avropa Azərbaycanı indidən "yaşıl enerji" təchizatçısı kimi qəbul edir



Səhifə ⇨ 8

# "Qarabağ" "Ludoqorets"i darmadağın etdi!

**UEFA Çempionlar Liqasının III təsnifat mərhələsinin cavab oyunu çərçivəsində Bolqarıstanda "Ludoqorets"lə üz-üzə gələn "Qarabağ" rəqibinə heç bir şans verməyib.**

Bakıda keçirilən ilk oyunda 1:2 hesabı ilə uduzan təmsilçimiz Bolqarıstanda "Ludoqorets"ə kabus yaşadıb. 2:7 hesabı ilə qalib gələn Ağdam klubu pley-offa yüksəlib. Təbriklər və təşəkkürlər, "Qarabağ"!

XQ




# Paris Olimpiadasına nə qədər pul xərclənib?



Səhifə ⇨ 12

# Xəzər sahilində sabahlara boylanan şəhər



Səhifə ⇨ 9

# Fransanın Paris şəhərində keçirilən XXXIII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə **qərara alıram:**

1. XXXIII Yay Olimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 400 000 (dörd yüz min) manat, onun məşqçisinə 200 000 (iki yüz min) manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 avqust 2024-cü il**

# "Fransanın Paris şəhərində keçirilən XXXIII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında"

## Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi Prezidentinin Sərəncamı

Fransanın Paris şəhərində keçirilən XXXIII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələr göstərdiklərinə görə mükafatların müəyyən edilməsi məqsədilə,

1. XXXIII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min) manat, onun məşqçisinə 25 000 (iyirmi beş min) manat;

1.4. Komandanın baş məşqçisi - idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

2. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin maliyyə idarəsi sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidenti***

**Bakı şəhəri, 13 avqust 2024-cü il**

# Azərbaycan Milli Olimpiya komandası üzvlərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

### "Şöhrət" ordeni ilə

Heydərov Hidayət Minayət oğlu
Kotsoiev Zelim Oleqoviç
Məmmədov Elxan Əbülfəz oğlu
Trautmann Riçard

### 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Həsənov Tərlan Əliheydər oğlu

### 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Alfonso Dominguez Loren Berto Berto
Maqomedov Qaşim Maqomed oğlu

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Cəfərov Həsrət Valeh oğlu
Qiorqi Meşvildişvili Kaxa oğlu
Maqomedov Maqomedxan Maqomedoviç

### 3-cü dərəcəli "Əmək" ordeni ilə

Abdullayev Məmməd Kamil oğlu
Əliyev Həsən Həsən oğlu
Qazyumov Xetaq Ruslanoviç
Məmmədov Anar Vahid oğlu
Paşayev Niyaməddin Vaqif oğlu
Roque Otano Pedro
Tarakanov Aleksandr Petroviç

### "Tərəqqi" medalı ilə

Qokşelidze Georgi
Əliyev Əli İman-Murzayeviç.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 avqust 2024-cü il**

# Azərbaycan – Türkiyə hərbi-texniki və kibertəhlükəsizlik əməkdaşlığı





**Avqustun 13-də Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Türkiyə nümayəndə heyəti ölkəmizə səfər çərçivəsində müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin Komandanı vəzifəsini icra edən general-leytenant Namiq İslamzadə ilə də görüşüb. Qonaqlara Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsinin yaranma tarixi, icra olunan fəaliyyətlərlə bağlı brifinq təqdim edilib, onları maraqlandıran suallar cavablandırılıb.

*

Həmin gün Azərbaycan və Türkiyə arasında İKT, kosmik sənaye, süni zəka və kibertəhlükəsizlik sahələrində əməkdaşlıq məsələləri də müzakirə edilib.

Bu barədə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "X" sosial şəbəkəsindəki hesabında bildirib.

Nazir vurğulayıb ki, bu gün ölkədə səfərdə olan Türkiyə Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünlə görüş keçirilib:

"Görüşdə Azərbaycanda qeyd edilən sahələrdə təlim proqramlarının həyata keçirilməsini və iki ölkə mütəxəssislərinin təcrübə mübadiləsinin təşkili istiqamətində tədbirlərin görülməsini qərarlaşdırdıq".

***XQ***

# Azərbaycanla Özbəkistan arasında kənd təsərrüfatı məhsullarının dövriyyəsinin artırılması müzakirə edilib



**Kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov ölkəmizdə səfərdə olan Özbəkistanın investisiyalar, sənaye və ticarət nazirinin müavini Akram Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə kənd təsərrüfatı məhsullarının dövriyyəsinin artırılması, bitkiçilik, meyvəçilik, ipəkçilik, aqrar təhsil, aqrar tədqiqatlar və digər sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. Tərəflər bu kimi görüşlərin əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını, eləcə də qarşılıqlı müzakirələrin davam etdirilməsinin zəruriliyini qeyd ediblər.

# Ölkə iqtisadiyyatı 4,5 faiz böyüyüb

**Cari ilin yanvar-iyul aylarında ölkədə 70 milyard 544 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.**

Dövlət Statistika Komitəsindən XQ-yə bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,2 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artıb.

ÜDM istehsalının 38,4 faizi sənaye, 9,6 faizi ticarət, 7 faizi, 6 faizi kənd təsərrüfatı, 5,7 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 19,1 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 6921,4 manata bərabər olub.

***XQ***

# Ermənistanın ekoloji terroru davam edir



**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Yaşıl dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin həyata keçirdiyi "Ermənistanın ekoloji terroru" adlı layihənin icrası davam edir.**

Layihə çərçivəsində Zəngilan rayonunun Ağalı kəndində "Oxçuçayda ekoloji fəlakət" adlı ictimai müzakirə keçirilib. "Yaşıl dünya" EMİB-in sədri Elman Cəfərli qeyd edib ki, işğal zamanı Zəngilanda, Cəbrayılda, Ağdamda qiymətli ağaclar olan meşələr qırılıb. Ağdamda 100 hektardan çox püstə meşələri vandal hücuma məruz qalıb. Laçın rayonunun Kamallı kəndi ərazisində 100 illik tarixə malik 30 hektara yaxın aqromeşə məhv edilib. Ermənistanın dağ-mədən sənayesi sərhəd çaylarını davamlı olaraq kimyəvi maddələrlə və tullantılarla çirkləndirir.

"Səma və Eko" Sosial İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova, Ağalı kənd sakinləri Gülşən Hüseynova, Vüqar Kərimli, Nurəddin Əliyev layihənin əhəmiyyətindən danışılar, Ermənistanın törətdiyi ekoloji cinayətlərin bölgədə böyük fəsadlar yaratdığını, Qarabağa böyük qayıdış prosesinə mane olduğunu bildiriblər.

Müzakirələrdə bildirilib ki, Azərbaycanın əsas çayları dağ-mədən sənayesinin ağır metal tullantıları ilə çirkləndirilib. Ermənistandan Azərbaycana 20-dən çox irili-xırdalı çay gəlir. Həmin çaylar Ermənistan ərazisində çirkləndirilib. Oxçuçay ekoloji çirklənməyə daha çox məruz qalır, Qacaran mis-molibden zavodu və Qafan mis filiz saflaşdırma kombinatının toksiki tullantıları ilə çirkləndirilir. Bəsitçayda, Bərgüşad və Araz çaylarında da çirklənmə dərəcəsi eynidir.

***XQ***

# İrəvanın konstitusiya direnişi sülhü ləngidir



**Ermənistan konstitusiyasının hazırkı mətni və dövlət sərhədinin delimitasiya prosesinin başa çatmaması Azərbaycan ilə Ermənistan arasında sülhə nail olunmasının qarşısında duran əsas əngəllər sırasında yer alır.**

Bu fikri Ankara Avrasiya Araşdırmaları Mərkəzinin analitiki Tuğçe Tecimer Cənubi Qafqazda sürətli və uzunmüddətli sülh perspektivlərini şərh edərkən bildirib.

Onun sözlərinə görə, Ermənistan konstitusiyasında Müstəqillik Bəyannaməsinə istinadla təsbit olunmuş Qarabağın Ermənistana birləşdirilməsi bəndi Azərbaycanın ərazi bütövlüyünə birbaşa təhdiddir. "Konstitusiya bütün digər normativ hüquqi aktların və ümumilikdə dövlət siyasətinin əsasını təşkil edən sənəddir. Ona görə də Azərbaycanın özünə qarşı ərazi iddiaları ehtimalını istisna etmək istəməsi təbiidir", -deyə Tecimer qeyd edib.

Türkiyəli analitik Ermənistanın baş naziri Nikol Paşinyanın ölkə Konstitusiyasının yenilənməsi zərurəti ilə bağlı sözlərinə müxalifətin və kilsənin mənfi reaksiyasına diqqət çəkib.

Sülh prosesinin qarşısında duran başqa bir maneə – delimitasiya prosesinin natamam olması barədə danışan AVİM-in eksperti dəqiq sərhəd xəttinin yeni toqquşmaların qarşısını alacağını və regionda təhlükəsizliyi gücləndirəcəyini bildirib.

Tecimer erməni kilsəsinin Azərbaycanla razılaşmalara qarşı olduğunu da diqqətə çatdırıb. O vurğulayıb: "Kilsənin mövqeyi diaspor tərəfindən Ermənistan hakimiyyətinə qarşı yeni tənqid dalğası üçün təkan oldu. Bütün bunlar son nəticədə danışıqlar prosesini ləngidir".

***XQ***

# "Xalq qəzeti" – xalqın qəzeti

(əvvəli 1-ci səhifədə)

Əminliklə demək olar ki, bu kökləniş jurnalist peşəkarlığının müstəqil dövlət quruculuğu naminə səfərbərlik örnəyidir.

Bəli, "Xalq qəzeti" hələ keçmiş SSRİ zamanında kəskin sədləri milli maraqlara dərin bağlılıq əzminin verdiyi yüksək mənəvi statusla aşa bilmişdi. Qəzet klassik mətbuatımızın ən parlaq ənənələrini yaşadaraq inkişaf etmiş, dövlət müstəqilliyimizin bərpa olunmasında mühüm ideoloji funksiyanı yerinə yetirmiş, əsl jurnalistika məktəbinə çevrilmişdi. Belə bir missiya heç də adi sayıla bilməzdi. Bu missiyanın ulu öndər Heydər Əliyev kimi mühüm ilhamvericisi olmuşdu. Ona görə də qətiyyətlə demək olar ki, "Xalq qəzeti"nin taleyində bu böyük dühanın əvəzsiz və tarixi rolu var.

Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə "Xalq qəzeti"nə yeni nəfəs gətirmişdir. Dahi şəxsiyyət 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi kimi ictimaiyyət qarşısında ana dilindəki ilk çıxışını məhz qəzetimizin 50 illik yubileyi ilə bağlı təntənəli mərasimində etmişdir. Bu, nəşrə verilmiş ən böyük dəyər idi. Əlbəttə, bu dəyərdə Ulu öndərin doğma ana dilimizin qorunması istiqamətindəki dərin təəssübkeşliyi, onun dövlət dili kimi qəbulu istiqamətindəki əzmi də var.

Ümummilli lider Heydər Əliyev respublikamız ikinci dəfə müstəqilliyinə qovuşduqdan sonra da "Xalq qəzeti"nin fəaliyyətinə həssaslıqla yanaşmışdır. Ulu öndər 1994-cü ildə qəzetimizə 75 illik yubileyi münasibəti ilə təbrik məktubu ünvanlamış və həmin məktubda nəşrin respublikamızda qəzetçilik ənənələrinin möhkəmlənməsində, jurnalistikamızın inkişafındakı xidmətləri xüsusi qeyd olunmuşdu. Heydər Əliyev bu gündəlik nəşrin ötən dövrdə Azərbaycan həyatının parlaq güzgüsü olmasını, ən əhatəli və davamlı salnaməsini yaratmasını, milli-mənəvi dəyərlərimizin inkişafına fəal xidmət göstərməsini, xüsusən ana dilimizin saflaşması və ədəbi dil normaları əsasında zənginləşdirilməsində xüsusi rol oynamasını yüksək qiymətləndirmişdir.

Qeyd edək ki, Azərbaycan mətbuatının, ümumən ictimai fikrin bir çox görkəmli nümayəndələri, qəlbi xalq və millətin mənafeyi naminə döyünən ziyalılarımız "Xalq qəzeti"nin yaradıcılıq məktəbini keçmişlər. Bu sırada Üzeyir bəy Hacıbəyli, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza kimi mötəbər simalar var. Siyahını Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Əziz Şərif, Fərhad Ağazadə, Əhməd Triniç (Bədi), Seyid Hüseyn, Əzim Əzimzadə (rəssam), Xəlil İbrahim, Əli Vəliyev və başqa böyük adlarla da davam etdirmək mümkündür. Konkretliyə gəlincə, yeni gənclik üçün sivil bədii manifest yazmış sevimli yazıçımız və görkəmli ədəbiyyatşünas Mir Cəlalın 30-cu illərdə o zaman "Kommunist" adı ilə çıxan qəzetin əməkdaşı olmasını vurğulaya bilərik.

Onu da deyək ki, milli təmayül 105 yaşının tamamına sayılı günlər qalmış qəzetin kommunist ideologiyalı rəsmi mövqeyini həmişə açıq və ya gizli formada müşayiət edib. Nəşr hələ 1920-ci illərdə xalqın maariflənməsi, savadsızlığın ləğvi, milli mədəniyyətin və iqtisadiyyatın inkişafı, ümumbəşəri və milli-mənəvi dəyərlərin bərəqərar olması yolunda mücadilənin fədakar simalarının tribunasına çevrildi. Bu ziyalılar ən çətin məqamlarda "türkləşmək, islamlaşmaq, müasirləşmək" prinsiplərini rəhbər tutdular. Elə bu səbəbdəndir ki, "Kommunist"in redaktorları "37-ci il" repressiyasının qurbanı oldular, həbsxanalardan qurtula bilmədilər. Onların bəzilərinin dəfn olunduğu yer bu günədək məlum deyil.

"Kommunist" 1941-1945-ci illərin Böyük Vətən müharibəsi zamanında da böyük fədakarlıq göstərmişdir. Savaşın xronikası, o dövrün ən mühüm fakt və hadisələrinin ümumi mənzərəsi ardıcıl və ən əhatəli şəkildə məhz onun səhifələrində əksini tapmışdır. Məlum olduğu kimi, müharibənin ilk aylarında respublika hökumətinin qəbul etdiyi qərara əsasən, yerli mətbuat öz fəaliyyətini yenidən qurmalı idi. Bu baxımdan başlıca tələb iş üslubunu hərbi qaydalara uyğunlaşdırmaq nəzərdə tutulurdu. Tələblərin gerçəkləşdirilməsində aparıcı rol Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə yanaşı, "Kommunist"ə də həvalə olunmuşdu.

Həmin dövrdə Azərbaycanın tanınmış ziyalılarının, şair və yazıçılarının faşizmə qarşı çıxışları qəzetin səhifələrində "Vətəni var qüvvəmizlə müdafiə edəcəyik!" rubrikası altında dərc olunmuşdu. Bundan başqa nəşrdə cəbhədə qəhrəmanlıqla döyüşən mübariz övladlarımızla bağlı oçerklər, bədii-sənədli yazılar, geniş araşdırmalar yer almışdı. Yeri gəlmişkən, qeyd edək ki, görkəmli jurnalist və müharibə vaxtı qəzet redaktorunun müavini işləmiş Nəsir İmanquliyevin "Kommunist" qəzeti Böyük Vətən müharibəsi illərində zəhmətkeşlərin əmək qəhrəmanlığı uğunda mübarizəsində" mövzusunda namizədlik dissertasiyasında Azərbaycanın cəbhəyə genişmiqyaslı köməyi redaksiyanın o dövr fəaliyyəti prizmasından əhatəli araşdırılmışdır. Ümumən, mətbu fəaliyyət standartları keçmiş SSRİ-nin digər mərkəzi nəşrləri və bölgə mətbuatı üçün təcrübə məktəbi rolunu oynamış "Kommunist" Azərbaycanı öyrənən önəmli xarici mərkəzlərin də marağında olmuş, onlar nəşrə mötəbər mənbə kimi istinad etmişlər.

Vurğuladığımız kimi, Heydər Əliyev şəxsiyyətinin "Xalq qəzeti"nin taleyində müstəsna rolu olmuşdur. Fikrimizcə, bu məqamın üzərində xüsusi dayanmağa ehtiyac var. Ümummilli liderin 1969-cu ildə respublika rəhbərliyinə gəlişindən sonra ötən əsrin, bütövlükdə 70-80-ci illərində qəzetin fəaliyyətində yeni mərhələ başlanmışdır. Həmin mərhələdə Ulu öndərin Vətənini sivil inkişafın ön mövqelərinə çıxarmaq iradəsi var idi ki, bu iradə və qətiyyətin ayrı-ayrı nümunələri "Kommunist"in səhifələrində əksini tapmışdı. Mətbuatın idarəçilikdəki funksiyasına yüksək dəyər vermiş, ən əsası bu funksiyanı daim işlək vəziyyətdə saxlamış, ümumən medianın gücündən milli maraqlar naminə səmərəli istifadənin örnəyi olmuş Heydər Əliyev şəxsiyyəti "Kommunist"in yenidən qurulması, gündəlik tirajının 650 min nüsxəyə çatdırılması üçün zəruri tədbirlər həyata keçirmişdi.

Ulu öndər Heydər Əliyevin jurnalistikaya milli şüur və düşüncənin inkişafı baxımından verdiyi böyük önəmin nəticəsi idi ki, 1990-cı illərin əvvəllərində Azərbaycanda ictimai-siyasi mübarizə yeni mərhələyə qədəm qoyduğu bir vaxtda mətbu söz və bu sözün müstəsna daşıyıcısı olan "Kommunist" qəzeti də mübarizənin ön sıralarında dayandı. Qəzet sovet rejiminin sərt cəza tədbirlərinə baxmayaraq, fəaliyyətini yeni dövrün tələbləri səviyyəsində qurdu, xalqımızı milli haqq mübarizəsinə səslədi.

O keşməkeşli dövrdə nəşrin kollektivinin üzvləri yaxşı anlayırdılar ki, müstəqilliyə gedən yol milli azadlıq mübarizəsindən keçir. Buna görə də Kommunist Partiyasının SSRİ-də qadağan olunmasından xeyli əvvəl AKP MK-nın təsisçiliyindən imtina etmişdilər. Onlar, həmçinin 1991-ci il avqustun 27-dən sonra qəzetin "Xalq qəzeti" adı ilə nəşrinə qərar vermişdilər. Bu, son dərəcə cəsarətli taleyüklü addım idi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra – 1991–1993-cü illərdə ölkədə iqtisadi tənəzzül güclənmiş, siyasi böhran dərinləşmişdi. Paralel olaraq cəbhədə hərbi uğursuzluqlar artmış, nəticədə, milli müstəqilliyimizin itirilməsi təhlükəsi yaranmışdı.

Bu iflasın qarşısını isə ulu öndər Heydər Əliyevin Naxçıvandakı xilaskarlıq missiyası kəsmişdi. Ümummili liderin 1993-cü ilin iyununda xalqın təkidi ilə yenidən rəhbərliyə qayıdışından sonra parçalanmanın, cəmiyyətdəki nifaqın dərinləşməsinin qarşısı alınmış, sürətli inkişafın təməli qoyulmuşdu. "Xalq qəzeti" məhz həmin çətin dövrdə də öz missiyasına sadiq qalmış, mühüm dövlət proqramlarının dolğun işıqlandırılmasına peşəkar yanaşmış, aktual mövzuları gündəmə gətiməsi ilə fərqlənmişdi. Bu mərhələdə də qəzetin milli maraqlara bağlılığı, xalqa xidmət amalı ulu öndər Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilmişdi. Buna görə də ümummilli lider 1994-cü ildə nəşrə 75 illik yubileyi münasibətilə ünvanladığı təbrik məktubunda yazırdı: "Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında "Xalq qəzeti"nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər. Müstəqilliyimizin qazanılmasından sonra da "Xalq qəzeti" respublikanın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır. Amansız təcavüzkara qarşı apardığımız ədalətli müharibə qəzetin daimi mövzusuna çevrilmişdir. Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır".

Heydər Əliyev şəxsiyyətinin diqqətə çatdırdığımız fikirləri "Xalq qəzeti"nin yeni gün, dövlətçilik amalları uğrunda mübarizə əzmini və ruhunu daim yüksək tutmuşdu. Nəşr Ulu öndərin ideya xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasətin xalqa çatdırılmasında, Xalq–Lider birliyinin daha da möhkəmlənməsində müstəsna rol oynamaqla, milli ənənələrin yaşadılması missiyasını daha da zənginləşdirmişdi. Nəşrin səhifələrində Xalq–Lider və Xalq–Lider–Ordu birliyini tərənnüm edən çoxsaylı və müxtəlif janrlı məqalələr yayımlanmışdı ki, həmin materialların hər biri də müstəqillik dövrü tariximizə işıq salmaq nöqteyi-nəzərindən əhəmiyyətlidir.

Bəli, Azərbaycan cəmiyyəti Xalq–Lider–Ordu birliyinin təntənəsini 44 günlük Vətən müharibəsi zamanı bir daha, özü də bənzərsiz və təkrarsız şəkildə gördü. Həmin vaxt "Xalq qəzeti" redaksiyası jurnalist peşəkarlığını və ekstremal şəraitdə fəaliyyət xəttini əsas götürərək, Vətən müharibəsinin xronikasını yaratdı. Bu xronikada dövlət başçısı İlham Əliyevin müdrik Sərkərdə və Ali Baş Komandan kimi döyüş əməliyyatlarına məharətlə rəhbərlik etməsi, baş verən hadisələrə çevik reaksiyası, beynəlxalq auditoriyaya yönəlik informasiya savaşı əksini tapdı.

Bu gün xalqımızın hər bir nümayəndəsi kimi, "Xalq qəzeti"nin əməksevər kollektivi də 44 günlük müharibədə qazandığınız möhtəşəm Zəfər nəticəsində doğma torpaqlarımıza sahiblənməyin dərin xoşbəxtlik hissini yaşayır, qürur hissi keçirərək, Azərbaycan həqiqətlərini yerli ictimaiyyətə və beynəlxalq aləmə çatdırmaq naminə daha əzmlə çalışır. Onlar dövlətimizin başçısının ulu öndər Heydər Əliyevin ideyalarına misilsiz sədaqətlə reallaşdırdığı siyasətin fəal təbliğatçıları, dövlətimizin informasiya cəbhəsinin dönməz əsgərləridir.

"Xalq qəzeti" kollektivinin üzvləri, həmçinin özündə gerçək salnamə yaşadan doğma nəşrlərinin 105 illiyinin əlahiddəliyi, ölkə miqyaslı olay kimi qarşılanması naminə də yorulmaq bilmədən çalışırlar. Bu istiqamətdəki fəaliyyətdə həm qəzetin ziyalı tribunası məsuliyyəti, həm Azərbaycan dövlətinin xalqımızın tərəqqisi, işğaldan azad olunmuş topraqlarımızın bərpası naminə apardığı quruculuq işlərinin fəal təbliğatçısı obrazı, həm də cəmiyyətə vətənpərvərlik hisslərini aşılamaq vəzifəsi var. Əlbəttə ki, nəşrin keçmişinə ehtiramı vurğulayan məqalələrin çapı, bunun üçün müxtəlif ekspert və mütəxəssislərə, araşdırmaçı alimlərə müraciət də həmçinin. Qarşımızda dayanan mühüm vəzifələrdən biri də "Xalq qəzeti"nin müxtəlif illərdəki ərəb və kiril qrafikalı saylarının elektron variantının hazırlanmasıdır.

Ümumən, redaksiyamızın müştərək qərarına əsaslanmış planlarımız çoxdur. Əminik ki, 105 yaşın gətirdiyi sevinc və qürur hissi qarşıya qoyduğumuz vəzifələrin icrasına dəstək baxımından böyük mənəvi rol oynayacaq. Çox arzu edərdik ki, bu sevincimizə ölkəmizin ziyalıları, dövlət, elm və incəsənət xadimləri də qoşularaq, 105 illik tarixin ayrı-ayrı epizodlarına, yaşantılarına dair dəyərli fikirlərini fundamental məqalələr şəklində bölüşsünlər. "Xalq qəzeti" özü bir tarixdir. Birlikdə tariximizə ehtiramımızı bildirək.

***Əflatun AMAŞOV,***
***baş redaktor***




# Xalqımızın 105 illik salnaməsi

**Əvvəla onu deyim ki, 1991-ci ildən "Xalq qəzeti" adı ilə nəşr olunan bu mətbuat orqanı fəaliyyət göstərdiyi bir əsrdən çox müddətdə daim Azərbaycan xalqına xidmət etmişdir. Bunu danmaq mümkün deyil. Ona görə də son illər onun "Xalq qəzeti" adına "Xalqın qəzeti" əlavəsinin edilməsi də yerinə düşür.**

Onu da deyim ki, mənim həyat məktəbimdəki böyük müəllimim, kumirim olan dahi Üzeyir bəy Hacıbəyli də (yeri gəlmişkən, indi haqqında söz açacağım kitabda onun adının dəfələrlə çəkilməsi qədirbilənlik nümunəsidir), konservatoriyadakı bəstəkarlıq müəllimim, dünya şöhrətli ustadım Qara Qarayev də, atam –Şərqin ən üzdəki tarzənlərindən olan Xalq artisi, Əməkdar İncəsənət xadimi, Əməkdar müəllim Əhmədxan Bakıxanov da, həmçinin özüm də bu qəzetlə daim bağlı olmuşuq. Çünki həm "Kommunist", həm də "Xalq qəzeti" ölkənin mədəni həyatındakı bütün yenilikləri müntəzəm olaraq və çox böyük məsuliyyətlə işıqlandırıb. Ona görə də, Allah şahiddir ki, mən həmişə bu qəzetə minnətdar olmuşam.

Üçüncü, bu sətirlər "Xalq qəzeti"nin 105 illik tarixində bəlkə də ilk yazıdır ki, redaksiyaya qələmə alınmadan göndərilib. Belə ki, əsrlərdən bəri davam edən ənənəyə görə müəlliflər öz məqalələrini redaksiyaya ya qələmlə, ya da makina ilə yazaraq göndəriblər. Mənim bu yazımı isə oğlum diktofona yazaraq göndərib. Bilirik ki, orada hamı, xüsusən, mənim 35 illik dostum İttifaq Mirzəbəyli 94 yaşlı bəstəkarın səsini yazıya çevirmək əziyyətindən incimir.

Nəhayət, yazının əsas məğzinə keçək. Hələ bu ilin may ayında, mənim evimdə qonaq olan İttifaq Mirzəbəyli söhbət əsnasında demişdi ki, avqust ayında "Xalq qəzeti"nin 105 yaşı tamam olur və bu münasibətlə bir neçə kitab tərtib edirik. O zaman mən evdəki qonaqların şahidliyi ilə demişdim ki, həmin yubiley münasibətilə mən də nə isə yazaram. Amma insultdan sonra əlimin yaxşı işləmədiyinə görə belə bir yazını qələmə almaqda çətinlik çəkdim. İttifaq Mirzəbəyli "Baş redaktorlarımız haqqında yazılanlar" adlı kitabını mənə təqdim edəndən sonra isə... əlim işləməsə də, dilim işlədi və yazını məhz bu şəkildə göndərirəm.

Mən bu qəzeti ailəmizə həm də ona görə doğma bilirəm ki, baş redaktorlardan biri ilə – İsrafil Nəzərovla atamın dostluğu var idi. Köhnə bakılılar kimi tez-tez görüşürdülər. Başqa bir redaktorun – Ağababa Rzayevin dövründə mənim bəstəkar Nəriman Məmmədovla birlikdə yazdığım 3 musiqili komediya ("Altı qızın biri pəri", "Məmmədəli kurorta gedir", "Qız görüşə tələsir") və başqa əsərlərim haqqında olduqca sanballı



resenziya hazırlanmışdı. Digər redaktor Tofiq Rüstəmovla mənim özümün şəxsi dostluğum var idi. O, həm gözəl insan idi, həm də mədəniyyət, incəsənət adamlarına ehtiramla yanaşırdı. Mahal İsmayıloğlu, Həsən Həsənov və Əflatun Amaşovla isə məni İttifaq Mirzəbəyli tanış etmişdi.

Mahal müəllim bir dəfə mənim yanımda İttifaq bəyə dedi ki, Tofiq Bakıxanov üçün bu redaksiyanın qapısının bağlı günü olmasın. Yaxud, mən Həsən Həsənovun kabinetində dəfələrlə olmuşdum. O, heç zaman mən otaqda olanda öz yerində əyləşmirdi. Daim ayaq üstdə dayanıb söhbət edirdi. Bu, böyüyə göstərilən ehtiram idi.

Əflatun Amaşov isə məni yeni yaradılan "XalqTV"nin ilk qonaqlarından biri kimi redaksiyaya dəvət etdi və müxbirə tapşırdı ki, həmin yarım saatlıq veriliş haqqında geniş qəzet yazısı da verilsin. Televiziya verilişi hazırlandı və efirə gedəndən sonra həmkarlarımdan xeyli zəng gəldi. Üstəlilk, qəzet yazısı da verildi. Elə indi haqqında söz açdığımız "Baş redaktorlarımız haqqında yazılanlar" adlı kitabın layihə müəllifi də Əflatun Amaşovdur.

Xatırladım ki, mənim çox zəngin arxivim var. Ulu babam Abbasqulu ağa Bakıxanovdan tutmuş mərhum qızım – ingilis və ərəb dillərində Misirdə və Britaniyada mühazirələr oxumuş Nigar Bakıxanovaya qədər bütün bakıxanovlar haqqında qələmə alınmış qəzet və jurnalların hamısını saxlayıram. Qətiyyətlə deyə bilərəm ki, arxivimdəki qəzetlərin əksəriyyəti "Kommunist" və "Xalq qəzeti"nin nüsxələridir. Mən minnətdaram ki, bu qəzet müstəqillik dövründə bakıxanovlar haqqında yüzlərlə məqalə və ya xəbər vermişdir.

Bu qəzet haqqında danışarkən bir neçə xatirəni də yada salmaq lazımdır. Mən ən çox qəzet oxuyan adamı 1945-ci il mayın 10-da – ya da 11-də görmüşdüm. Onda 15 yaşım var idi. Elə bilirdim ki, camaatın oxuduğu qəzetləri də təyyarələrlə göydən atıblar. Amma elə deyildi. Həmin gün Bakıya "Kommunist" qəzeti yağmışdı. Çünki qəzetdə "Qələbə" xəbəri var idi.

Başqa bir xatirəm 1973-cü ilin oktyabrında – dünyanın bütün kosmonavt və astronavtlarının Bakı küçələrində göründüyü günlərlə bağlı idi. Yadımdadır, hamı kosmonavtları görmək isyəyirdi. Təbii ki, bu mümkün deyildi. İcazə vermirdilər. Ancaq "Kommunist" qəzeti" onları bizə çox yaxşı tanıdırdı. Həmin əsrin sonlarında – Topxana hadisələri vaxtı da "Kommunist" qəzeti cəsarətli yazıları ilə xalqın yanında olduğunu sübut edirdi.

Müstəqillik illərində, xüsusən, 44 günlük İkinci Qarabağ müharibəsi dövründə isə bu qəzet sübut etdi ki, "televiziyalar yazılı mətbuatı üstələyir" deyənlərin arqumenti o qədər də əsaslı deyil. Mən İttifaq Mirzəbəylinin "And və əməl" kitabında toplanmış yazılarını oxuyanda məmnun oldum ki, dostluq etdiyim redaksiyanın bu qədər səmərəli fəaliyyəti var.

Peşəkar jurnalist, dəyərli mətbuat təşkilatçısı kimi tanıdığım Əflatun Amaşov başda olmaqla "Xalq qəzeti"nin bütün kollektivini qarşıdan gələn 105 illik yubiley münasibətilə təbrik edir, yeni-yeni uğurlar arzulayıram. Çoxdankı dostum, bakıxanovların hamısı haqqında onlarca məqalə yazmış və kitablar tərtib etmiş İttifaq Mirzəbəyliyə isə bu yubiley münasibətilə tərtib etdiyi kitablara görə təşəkkür edirəm.

***Tofiq BAKIXANOV,***
***Xalq artisti, professor, Prezidentin fərdi təqaüdçüsü, "Şərəf" ordenli bəstəkar***

# Bakı–Tehran münasibətlərini pozmaq istəyənlər yanılırlar

**Bugünkü mərasimin tarixi əhəmiyyəti, o cümlədən ondadır ki, ilk dəfə olaraq İran və Azərbaycan prezidentləri sərhəddə görüşürlər. Bu, bir daha onu göstərir ki, bu sərhəd dostluq sərhədidir, qardaşlıq sərhədidir. Qədim tarixdən gələn qarşılıqlı hörmət, anlaşma, dəstək hissləri bu gün həm bu nəhəng layihədə, aparılan danışıqlarda və əldə edilmiş razılaşmalarda özünü göstərir, eyni zamanda, gələcək planlarımızda özünü göstərəcək.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**19 may 2024-cü il, Xudafərin**



**(əvvəli 1-ci səhifədə)**

Təxminən on il qabaq da belə bir kritik vəziyyət yaranmışdı. ABŞ rəhbərliyi İrana təzyiqlər, hətta hücumlar üçün Azərbaycanın ərazisindən istifadə etmək istəyirdi. Prezident İlham Əliyevin o zaman sərgilədiyi qətiyyətli, cəsarətli və iranlıların da dediyi kimi mərdanə mövqeyi dünyanın hər yerində alqışlanmışdı. Azərbaycan Prezidenti birmənalı olaraq demişdi: "Biz öz ərazimizdən hansısa qonşumuza qarşı silahdan istifadə edilməsinə imkan, icazə verməyəcəyik!" Dövlət başçımızın Ağ evin istəyinə o şəkildə cavab verməsindən sonra İrandakı anti-Azərbaycan mövqeli qüvvələr öz dillərini dincə qoymuşdular.

İndi İran – İsrail münasibətlərindəki gərginlik növbəti dəfə pik həddə çatanda region mətbuatı yazdı: "Azərbaycan Prezidenti İlham Əliyev iyulun 9-da cənab Məsud Pezeşkiana zəng edərək onu İran İslam Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb". Əlavə olunur ki, Azərbaycan Prezidenti İran Prezidenti Məsud Pezeşkianı ölkəmizə səfərə dəvət edib.

Əslində, Azərbaycan Prezidenti dünyadakı anti-Azərbaycan və anti-İran xislətli siyasi dairələrə başa saldı ki, bizim yaxın qonşularımızla olan xoş münasibətimizi heç bir müharibə, münaqişə və ya digər siyasi proses əngəlləyə bilməz və əngəlləməyəcəkdir.

Bu məqamda mən ulu öndər Heydər Əliyevin 1994-cü il iyunun 30-dan iyulun 2-dək davam edən İran səfərində səsləndirdiyi bir fikri xatırlatmaq istəyirəm. Ümummilli lider Tehranda, dövlət rəsmilərinin önündə demişdi ki, biz – yəni Azərbaycan dövləti min illər boyu yaşadığımız bu ərazidən heç yerə getməyəcəyik. Mən bilən İranın da belə bir fikri yoxdur. Ona görə də çıxış yolumuz istənilən məsələni danışıqlar vasitəsilə, dostcasına həll etməkdir ki, min illər boyu yaşadığımız mehriban qonşuluğu daha bir min il də davam etdirə bilək.

Son zamanlar şahidi olduğumuz faktlar sübut edir ki, Prezident İlham Əliyev də həmin siyasəti çox böyük məharətlə davam etdirir. 30 il ermeni işğal altında qalan torpaqlarımızın əsarətdən azad edildiyi 44 günlük İkinci Qarabağ müharibəsi günlərində və bizim şanlı zəfərimizdən sonra İrandakı bəzi anti-Azərbaycan qüvvələrin səhv, səbatsız və məkrli bəyanatlarına baxmayaraq, rəsmi Bakı Tehranla münasibətlərin yaxşılaşdırılması üçün lazım olan bütün addımları atdı.

Nəticədə bu il mayın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti – mərhum Seyid İbrahim Rəisinin iştirakı ilə Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağı istismara verildi və "Qız qalası" hidroqovşağının açılış mərasimi keçirildi. Ekspertlərin fikrincə, bu fakt Azərbaycanın və İranın bədxahlarına vurulan sarsıdıcı zərbə idi.

Xatırladaq ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədində – Araz çayı üzərində inşa edilən "Xudafərin" və "Qız qalası" hidroqovşaqları elektrik enerjisi istehsalı və suvarma məqsədilə tikilib. Hidroqovşaqların layihələri Sovet İttifaqı ilə İran arasında 1977-ci ilin oktyabrında imzalanan razılaşma əsasında hazırlanıb. Layihələri 1990-cı illərin əvvəllərində yenidən işlənilən hidroqovşaqların tikintisi Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilməsi nəticəsində dayandırılsa da, sonrakı dövrlərdə tikinti işləri yalnız İran İslam Respublikası tərəfindən aparılıb.

Tədbirdə qeyd edilmişdi ki, Araz çayının su ehtiyatlarından səmərəli istifadə olunmaqla elektrik enerjisinin istehsalı və əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına xidmət edəcək "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarında su bəndlərinin tikintisi üzrə işlər tamamlanıb, su anbarlarının doldurulması işlərinə başlanılıb. Hazırda "Xudafərin" su anbarında 503 milyon kubmetr, "Qız qalası" su anbarında isə 42 milyon kubmetr su yığılıb ki, bu da ümumi tutumun 40 və 85 faizini təşkil edir. O vaxt "Xalq qəzeti" yazmışdı ki, "Su aydınlıqdır!"

Dövlət başçımızın həmin tədbirdəki çıxışında belə bir fikir də var idi ki, bu gün hörmətli Prezident Rəisi ilə bir çox məsələləri geniş müzakirə etdik və bir daha əmin olduq ki, bizim fikrimiz üst-üstə düşür, istər beynəlxalq məsələlərlə əlaqədar, istərsə də regional təhlükəsizlik məsələləri ilə bağlı: "Bu, çox önəmli bir amildir. Bölgənin sabitliyi üçün, gələcək təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün İran – Azərbaycan dostluğu, qardaşlığı önəmli amildir. Biz bütün beynəlxalq təşkilatlarda, üzv olduğumuz təşkilatlarda bir-birimizi dəstəkləyirik və bundan sonra da bu dəstəyi göstərəcəyik. Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında, ECO-da və BMT-də bir-birimizə dəstək verməklə, eyni zamanda, öz siyasətimizi, öz niyyətimizi ifadə edirik".

Bəli, coğrafiyamızdakı Araz çayı siyasi zəmindəki Azərbaycanla İranı ayırmır, həm də birləşdirir. Yaranmış yeni ictimai-siyasi proseslər, kritik vəziyyətlər Bakı ilə Tehranı daha da yaxınlaşmağa çağırır və Azərbaycan həmin çağırışlara dərhal öz müsbət cavabını verir. Elə Tehrandan da xoş məqsədlərlə əl uzadıldığını son zamanlar tez-tez görürük.

İndi beynəlxalq aləmdə iqtisadi məsələlər bütün dövlətlərin gündəliyinin ilk sırasındadır. Bunu yaxşı bilən Bakı və Tehran ölkələrimizin iqtisadi maraqlarını təmin edən digər layihələrə yanaşı, nəqliyyat layihələrinə də böyük maraq göstərirlər. Dövlət başçımızın da dediyi kimi, bu gün Tehran və Bakı nəinki ölkələrimiz üçün, daha geniş coğrafiya üçün böyük əhəmiyyət daşıyan Şimal – Cənub nəqliyyat dəhlizinin yaradılması ilə əlaqədar birgə səylər göstəriblər. Bu günə qədər göstərilən səylər artıq real layihələrə çevrilib.

Prezident məmnunluqla xatırladır ki, bundan sonra həm İran, həm də Azərbaycan ərazisində müasir dəmir yolu infrastrukturunun yaradılması və modernləşdirilməsi Şimal – Cənub nəqliyyat dəhlizini dünyanın ən önəmli nəqliyyat damarına çevirəcəkdir: "Hər iki ölkə burada öz səylərini birləşdirib... Şimal – Cənub nəqliyyat dəhlizi üzrə keçən il yükdaşımaların həcmi 50 faizdən çox artıb, bu ilin üç ayında da artıb. Bütövlükdə isə İranla Azərbaycan arasındakı yükdaşımaların artımı 50 faizdən çoxdur və bu, hələ başlanğıcdır, dəmir yolu tam istismara veriləndən sonra bu rəqəmlər daha da artacaq".

Son zamanlar dünya ekspertləri ABŞ diplomat və siyasətçisi Zbiqnev Bzejinskinin bir ifadəsinə tez-tez müraciət edirlər: "İqtisadi maraqlar təkcə münaqişə və müharibələrə deyil, həm də sülh və əməkdaşlığa zəmin yaradır". Biz bunu öz təcrübəmizdə gördük.

Sonda bir daha xatırladaq ki, böyük səylər və zəhmətlər bahasına normal məcraya yönəldilmiş Azərbaycan – İran münasibətlərinə xələl gətirmək istəyənlər yanılırlar. Biz – Bakı və Tehran bu münasibətlərin kim tərəfindənsə korlanmasına imkan verməyəcəyik.

***İttifaq MİRZƏBƏYLİ***

---

**(əvvəli 1-ci səhifədə)**

# Haylar üçün "məngənə"

## NATO və KTMT arasında çapalayan Ermənistan çıxış yolu axtarır



Ermənistan da öz növbəsində bölgəyə kənar aktorların yersiz müdaxiləsindən yararlanaraq, sülhdən yayınmağa, silahlanmağa, danışıqlar masasında Bakıdan hansısa güzəştləri qoparmağa çalışır. İrəvanın bu riskli addımları nəinki sülh sazişinə aparan yolun üstündə əngəllər yaradır, həm də bölgədə hərbi-siyasi eskalasiyanı gərginləşdirir. Artıq Paşinyan iqtidarının avantürist "taktiki gedişlərinin" gözlə görünən mənzərəsi formalaşıb. Bu siyasi mənzərənin sonuncu epizodları qismində Ermənistan baş nazirinin Londonda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən qaçmasını, Fransanın Bakının evsahibliyi edəcəyi BMT-nin nüfuzlu COP29 tədbiri ərəfəsində sərhəddə lokal qarşıdurmalar yaratmaq cəhdlərini və buna görə Azərbaycanı ittiham etməsini və nəhayət, ABŞ hərbi təyyarələrinin İrəvana silah-sursat daşımasını qeyd etmək olar. ATƏT-in keçmiş Minsk qrupunun uğursuz həmsədrlərindən biri olan ABŞ bu gün Ermənistanın silahlanmasına istiqamət verən əsas xarici aktorlardan birinə çevrilib. Hazırda məhz Vaşinqton, Paris və Nyu Dehli Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda eskalasiya təhlükəsini daha da artırır, bölgədə yeni hərbi əməliyyatlara səbəb olacaq şəraitin yetişməsini sürətləndirirlər.

* * *

Qafqaz uğrunda "böyük güclər" arasındakı mübarizə, demək olar ki, açıq müstəviyə keçdiyindən, deyəsən, diplomatik və hərbi konspirativlik də yaddan çıxıb. Əgər belə olmasaydı, ABŞ okeanın o üzündən Ermənistana hərbi yük və şəxsi heyət göndərməzdi.

Bir həftə bundan əvvəl "Caliber.az" eksklüziv material paylaşdı və ABŞ Hərbi Hava Qüvvələrinə məxsus iki hərbi təyyarənin Ermənistanın Zvartnots hava limanına endiyini yazdı. Məlumatda deyilirdi ki, "Boeing C-17" hərbi yük təyyarələrində İrandan atılan raketlərin və digər təyyarələrin trayektoriyasını izləyən xüsusi cihazların da daxil olduğu hərbi yüklərlə yanaşı, Ermənistana bu texnikaya nəzarət edəcək şəxsi heyət də gətirilib. Azərbaycan və İranla sərhəddə yerləşdiriləcək həmin şəxsi heyəti kənar gözlərdən yayındırmaq üçün onun böyük qisminin ABŞ ordusunda xidmət edən erməni əsilli vətəndaşlardan, həmçinin postsovet məkanından okeanın o tayına köçmüş qafqazlıların arasından seçildiyi xəbərdə vurğulanırdı. Yəni, kifayət qədər detallı və mötəbər mənbədən alındığı şübhə doğurmayan, sensasion xarakterli materialın dərcindən bir gün sonra ABŞ-nin Ermənistandakı səfirliyi Zəngəzura amerikan hərbçilərinin yeridilməsi ilə bağlı məlumatı cavablandırmağa tələsdi. Səfirliyin cavabında deyilirdi: "Birləşmiş Ştatlar və Ermənistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş "Qartal Tərəfdaş 2024" təlimi iyulun 24-də uğurla başa çatıb. Biz təsdiq edə bilərik ki, bütün ABŞ texnikası və şəxsi heyət Ermənistanı tərk edib".

Sayt səfirliyin cavabına şərhində qeyd edirdi ki, bəli, birgə hərbi təlimlər iyulun 15-dən 24-dək baş tutub. Amma ABŞ Hərbi Hava Qüvvələrinə məxsus hərbi-nəqliyyat təyyarələri Zvartnos hava limanına avqustun əvvəlində enib. Və haqlı olaraq qeyd olunurdu ki, səfirliyin məlum məlumata reaksiyası mövzudan tamamilə kənardır. Oxuculara təqdim olunan məlumatların təkzib edilmədiyini və Ağ evdən bunun etirafını eşitməyən sayt avqustun 7-dəki materialında söz verdiyi kimi, Zvartnots hava limanına enən hərbi-nəqliyyat təyyarələrindən birinin fotolarını yayımladı. Fotoşəkillərdə göstərilən təyyarə Qətərdən havaya qalxıb, Gürcüstanın hava məkanından keçərək Ermənistan ərazisinə daxil olub. Burada maraqlı detallardan biri də ondan ibarətdir ki, rus sərhədçiləri iki gün əvvəl Zvartnots aeroportunu tərk etmişdilər. Bu da başadüşüləndir. Axı, ABŞ hərbi təyyarəsindən silah və hərbçilərin boşaldılması prosesinə Rusiya sərhəd xidməti nəzarət edə bilməzdi...

* * *

"Əgər ABŞ səfirliyi və erməni tərəfi həqiqəti təkzib edərsə, biz cənab Ostinin ittihamlarının Ermənistanda qalması ilə bağlı yeni təfərrüatları təqdim etməyə hazırıq. Bizdə materiallar var, lakin biz onları hissə-hissə verəcəyik". Sayt özünün bu son açıqlamasının ardınca təqdim etdiyi məlumatların amerikalı tərəfdaşlar tərəfindən Azərbaycan vətəndaşları üçün verəcəyini daha səmimi şəkildə şərh etmək istəyinə ümid etdiyini nəzərə çatdırıb.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** hesab edir ki, Paşinyan hakimiyyəti son vaxtlar açıq şəkildə Rusiyaya göstərir ki, onun niyyəti Kremldən tamamilə uzaqlaşmaq, Avropa, ABŞ ilə yaxın olmaqdır. Bəli, bundan ötrü İrəvan Vaşinqtonla hərbi-texniki əməkdaşlığın inkişafında maraqlı olduğunu nümayiş etdirir. Aydın məsələdir ki, Ağ evin əsas məqsədi rusları Zəngəzurdan sıxışdırmaqdır. Yəni Rusiya sərhədçilərinin bu dəhlizi qorumalarına imkan verməmək, həmin kontingenti amerikalı əsgərlərlə əvəzləmək. Bəlkə də, Ağ evin orada müəyyən sayda şəxsi heyətə malik hərbi baza yaratmaq planı da var. Amma belə bir planın, hətta reallaşacağı təqdirdə Ermənistana hansı faydanı verəcəyini demək çətindir. Bunlar ciddi suallarıdır, ortaya gətirən məqamlardır. Paşinyan iqtidarının bunu asanlıqla edə biləcəyinə şübhəm var. Sadəcə, bölgədə Rusiya ilə ABŞ arasında yeni qarşıdurma meydanı yarana bilər. Azərbaycan bütün hallarda – istər ruslar olsun, istər amerikalılar – Zəngəzur dəhlizindən istifadə edəcək və gec-tez bu dəhliz açılacaq. Çünki Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiya açılmalıdır. Buna mütləq nail olacağıq".



Tanınmış politoloq son vaxtlar kollektiv Qərbin bölgəyə münasibətdə sərgilədiyi siyasətin əlavə gərginliyə gətirib çıxaran amillər olduğunu deyir: "Bunlar həm də Azərbaycan və Türkiyəyə qarşı atılan addımlardır. Çünki bölgədə alternativ və güclü bir alyans yaranıb. Əlbəttə ki, ABŞ-nin son hərəkətləri heç də Ermənistana sevgisindən irəli gələn jestlər deyil. Burada söhbət düşünülmüş siyasi addımlardan, ABŞ başda olmaqla bölgədə maraqları olan bəzi güclərin Rusiyanın başının müharibəyə qarışmasından məharətlə istifadə etməsindən gedə bilər".

* * *

**Mövzuya münasibətini bildirən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** Ermənistandakı ABŞ səfirliyinin qonşu ölkələrə bağlı kəşfiyyat işləri apardığı barədə fikirlərin çoxdan mövcud olduğunu söylədi. Onun sözlərinə görə, hələ neçə il bundan əvvəl ABŞ-nin İrəvandakı səfirliyinin İrana qarşı kəşfiyyat işləri apardığı barədə xəbərlər yayılmışdı: "Belə fikirlər səsləndirilirdi. Diplomatlar zarafatla deyirdilər ki, bu, ABŞ-nin İrandakı səfirliyidir, sadəcə hələ ki, Ermənistanda yerləşir". Politoloq onu da bildirib ki, İrəvana deyil, Zəngəzura eniş edən təyyarələrlə bağlı məlumat öz təsdiqini tapmalıdır: "Biz bilirik ki, bir çox dövlətlər bu məsələni diqqətdə saxlayır. İran da, Rusiya da, təbii ki, Azərbaycan da. Ermənistana hərbi avadanlığın nə məqsədlə gətirildiyini isə Vaşinqton mütləq açıqlamalıdır".

İndi NATO və KTMT arasında "məngənə"yə salınmış Ermənistan polad tələdən çıxış yolunu axtarmaqla məşğuldur. İndi onun durumuna heç müttəfiqləri də qibtə etmirlər. 44 günlük müharibədə sarsıdıcı zərbə alan və hələ də revanş xəyalından əl çəkmək istəməyən İrəvan bu dəfə Qərb silahlarını "istismara" qəbul etməyə meyillənib. Onun bu məqsədlə vaxtaşırı şərti sərhəddə təxribatlara əl atacağı təəccüb doğurmamalıdır. Amma Azərbaycan hakimiyyəti təmkinli siyasətini davam etdirəcək və mümkün təxribatlara vaxtında və layiqincə cavab verəcək. Sadəcə olaraq, məsələnin əcaib tərəfi odur ki, İrəvan nə vaxta qədər dəfələrlə aldadılmış qərbli "tərəfdaşlarının" fitvasına gedəcək və sülh prosesini qəsdən ləngitməklə məşğul olacaq? Axı, onun əlində Bakı ilə "tet-a-tet" əyləşib sülh müqaviləsini imzalamamasının üçün heç bir tutarlı səbəbi qalmayıb. Nəqliyyat kommunikasiyalarının açılması məsələsinin sülh sazişinin mətnindən çıxarılması və müzakirənin sonrakı mərhələyə saxlanması Bakının atdığı xoşməramlı addım idi. Amma dirijor çubuğu ilə hərəkətə öyrəncəli İrəvan yenə hansısa bəhanə axtarmağa başlayıb.



Bölgədə qəsdən formalaşdırmağa çalışdıqları gərgin situasiya "bulanıq suda balıq tutmaq" sevdasına düşənlərin planlarını həyata keçirməyə yetməyəcək. Hətta ən skeptik proqnozlara görə, hərbi eskalasiyanın yaranacağı təqdirdə yenə uduzan Ermənistan olacaq. Həm də bu dəfə tək özünün deyil, onu "məngənəyə" salmış qərbli "züytutanları"n da məğlub duruma düşəcəkləri qaçılmaz olacaq.

Təxminən bir ay bundan əvvəl Aİ şurasının prezidenti Şarl Mişelin tərəflərə yeni təkliflərlə müraciəti, sonra ABŞ Dövlət Departamenti rəsmilərinin, konqresmenlərin İrəvana "qastrolları", Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Tehrana və Bakıya səfərləri və onun "kommunikasiya xətlərinə Qərbi buraxmaq olmaz" ismarıcı Qafqazda qazanın qaynamasından Moskvanın ciddi narahatlığından xəbər verirdi. Şübhə yoxdur ki, "qanaq" bu dəfə də "məngənə"yə salınanın başında çatlayacaq.

***İmran BƏDİRXANLI***
***XQ***



# Milli Məclisə seçkilərə 17 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Seçki kampaniyası yüksək səviyyədədir

*Müsahibimiz 15 saylı Yasamal birinci dairə seçki komissiyasının sədri Cumar İsayevdir*

**Avqustun 9-dan etibarən Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar seçkiqabağı təşviqat kampaniyası başlanıb. Seçki Məcəlləsinin tələblərinə görə, təşviqat kampaniyası səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.**

Seçkiqabağı təşviqat kampaniyası prosesin namizədlər üçün ən gərgin və həlledici mərhələsi hesab olunur. Namizədlər seçicilərlə məhz bu mərhələdə görüşlər keçirir, onlar arasında təbliğat-təşviqat aparır, özlərinin platformalarını təqdim edir, seçildikdən sonra görəcəkləri işlər barədə vədlər verirlər. Keçirilən görüşlər əsnasında seçicilər artıq namizədlər arasından öz seçimlərini edirlər. Bu mənada səsvermə gününün sonunda seçki qutusundan kimin adının çıxacağı, əslində, bu proses zamanı bəlli olur. Təşviqatın səsvermənin başlanmasına bir sutka qalmış, yəni avqustun 31-i, saat 08:00-da dayandırılması da təsadüfi deyil. Bu, hələ də fikrini qətiləşdirməyən seçicinin son qərarını verməsi üçün ayrılan vaxtdır.



Təşviqat kampaniyası dairə seçki komissiyalarında da iş yükünün artmasına səbəb olur. Onlar seçkiqabağı təşviqat üçün müəyyən edilmiş açıq və qapalı məkanda görüş saatlarını elə tənzimləməlidirlər ki, namizədlərin görüşləri üst-üstə düşməsin. Bəs DSK-larda daha hansı işlər görülür? Prosesin gedişi, ümumi ahəngi onun iştirakçılarını qane edirmi? Bu və digər məsələlər ətrafında 15 saylı Yasamal birinci dairə seçki komissiyasının sədri Cumar İsayevlə həmsöhbət olduq.

***– Cumar müəllim, 15 saylı Yasamal birinci dairə seçki komissiyasında seçki prosesinə hazırlıq işlərinin gedişi ilə bağlı məlumat verməyinizi xahiş edirik...***

– 15 saylı Yasamal birinci seçki dairəsində də işlər Mərkəzi Seçki Komissiyasının Təqvim planına və Seçki Məcəlləsinin tələblərinə, həmçinin digər təlimatlara və hüquqi aktlara uyğun olaraq aparılır. Seçkilərin keçirilməsi üçün məntəqə seçki komissiyaları formalaşıb. Kifayət qədər avadanlığımız, inventarımız, lazım olan digər vasitələr var. Məntəqələr bunların hamısı ilə təmin olunub. Dairə seçki komissiyasının hüdudları daxilində 38 seçki məntəqəsi var. Bugünkü məlumata görə, seçicilərin sayı 50 min 965 nəfərdir.

***– Seçki prosesində mühüm rola malik olan məntəqə seçki komissiyaları üzvlərinin hazırlıq səviyyəsinin artırılması üçün hansı işlər görülür?***

– Biz bu məqsədlə məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər keçiririk. Treninqlər zamanı məntəqə seçki komissiyalarının üzvlərinə seçki günü görüləcək işlər, eləcə də seçki protokollarının tərtib edilməsi ilə bağlı zəruri məlumatlar verilir. Onların seçki prosesinə dair sualları Seçki Məcəlləsinə əsasən cavablandırılır. Eyni zamanda, Mərkəzi Seçki Komissiyası bizə kifayət qədər təlimatlar, broşürlər və yaddaş kitabçaları göndərib. Bütün bunlara uyğun olaraq treninqlərdə seçki prosesi zamanı və səsvermə günü hansı işləri icra etmək lazım olduğunu məntəqə seçki komissiyalarının üzvlərinə öyrədirik. Məqsədimiz seçki prosesinin demokratik keçirilməsini, hər bir seçiciyə səs verməsi üçün imkan və şərait yaradılmasını, vətəndaşların sərbəst şəkildə gəlib öz iradəsini ifadə edə bilməsini təmin etməkdən ibarətdir.

***– Dairə üzrə neçə namizəd seçkidə qalib gəlmək üçün yarışır?***

– Namizədliyini irəli sürmək üçün 20-yə yaxın vətəndaş müraciət etmişdi. Onların sənədləri yoxlanılmış, namizədliyin irəli sürülməsini təsdiq edən qərar qəbul edilmiş və imza toplamaları üçün imza vərəqələri verilmişdi. Sonda DSK-nın qərarı ilə biz 10 nəfərin namizədliyini qeydə almışıq. Onlar namizəd olmaqla bağlı vəsiqələrini alıblar. Hazırda namizədlər təşviqat kampaniyası aparırlar.

Onlardan 6-sının namizədliyi öz təşəbbüsü, 4-ü isə siyasi partiyalar tərəfindən irəli sürülüb. Namizədliyi öz təşəbbüsü ilə irəli sürülən şəxslər bitərəfdir. Siyasi mənsubiyyəti olan 4 namizəd isə Yeni Azərbaycan Partiyasını, Vətəndaş Həmrəyliyi Partiyasını, Ədalət Partiyasını və Ümid Partiyasını təmsil edir.

***– Namizədlər qanunvericiliyin tələblərinə uyğun olaraq, öz təbliğatlarını apara bilirlərmi?***

– Hər bir seçki məntəqəsinin qarşısında təşviqat lövhəsi var. Orada namizədlər öz plakatlarını yerləşdiriblər. 15 saylı Yasamal birinci dairə seçki komissiyasının hüdudları daxilində qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün açıq və qapalı yerlər müəyyən edilib. Açıq görüşlərin keçirilməsi üçün Yeni Yasamal 2 yaşayış massivində yerləşən "Qismət" şadlıq sarayının qarşısındakı meydan, qapalı görüşlərin keçriilməsi üçün Şərifzadə küçəsi 204 ünvanında yerləşən 2 nömrəli Bakı Baza Tibb Kollecinin akt zalı ayrılıb. Biz bu barədə namizədlərə də məlumat vermişik. Onlar görüşlərini ayrılmış yerlərdə keçirə bilərlər. Yeri gəlmişkən, qeyd edim ki, açıq və qapalı yerlər Yasamal Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə dairə seçki komissiyasının təklifi əsasında ayrılıb.

***– Seçki prosesində aktivlik hiss olunurmu?***

– Aktivlik əvvəl də var idi. Amma son günlər xüsusilə hiss olunur. Çünki prosesin təbliğat-təşviqat kimi mühüm bir mərhələsinə qədəm qoymuşuq. Namizədlər görüşlərini keçirirlər. Hansı namizəd müraciət edirsə, biz ona görüş keçirməsi üçün şərait yaradırıq. Biz onlara ancaq yer ayırırıq. Bizim prosesə hər hansı formada müdaxilə etmək səlahiyyətimiz yoxdur. Hamısına bərabər, demokratik şəkildə şərait yaradırıq ki, özlərinin təbliğat-təşviqatlarını aparsınlar. Namizədlərin görüşlərinin üst-üstə düşməməsi üçün əvvəlcədən cədvəl tərtib edirik.

***– Seçkilərə hazırlığın gedişində hansısa nöqsanlarla, çatışmazlıqlarla rastlaşmısınızmı?***

– Hələlik hansısa çətinliklə üzləşməmişik. Qaldırdığımız məsələlərin hər birinə Mərkəzi Seçki Komissiyası operativ və adekvat cavab verir. Namizədlərin seçki prosesi ilə bağlı qanunvericiliyə uyğun olan tələbləri də yerinə yetirilir.

Məntəqələrdən, seçicilərdən, yaxud namizədlərdən hər hansı müraciət olduqda biz onları operativ şəkildə həll etmək üçün işçi qrupu yaratmışıq. Biz onların müraciətlərini operativ qaydada dinləyir və həllini tapması üçün çalışırıq.

***– Seçicilərdən sizə hansısa məsələlərlə bağlı müraciətlər daxil olurmu?***

– Bəzi hallarda adları seçici siyahısında olmayan vətəndaşlar müraciət edirlər. Onlar adlarını seçici siyahısında axtarıb tapmayanda bizə üz tuturlar. Bunlar texniki problemlərdir. Bəzən kiminsə adı siyahıya düşmür, kiminsə şəxsiyyət vəsiqəsində problem olur. Bizə müraciət etdikləri halda bu kimi problemlər tezliklə həllini tapır. Biz məntəqələrə müraciət etdikləri təqdirdə seçicilərə verilməsi üçün qeydiyyatdan çıxma vəsiqələri də vermişik. Onlar bu vəsiqələrlə dairə ərazisindəki bir məntəqədən çıxıb digərində səs verə bilərlər.

***– Seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün hansı işlər görülür?***

– Seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq fəaliyyətimizi davam etdiririk. Məntəqələrdə seçici siyahıları asılıb, namizədlər, müşahidəçilər müəyyənləşib. Qeyd etdiyim kimi, açıq və qapalı yerlər müəyyən edilib. Namizədlərin görüşləri hər hansı problem olmadan keçirilir. Hər bir vətəndaşın müraciətinə də biz operativ şəkildə cavab veririk.

***– Müşahidəçilər neçə nəfərdir?***

– İndiyədək 212 müşahidəçi DSK-da qeydiyyatdan keçib və bu rəqəm arta bilər. Qeydiyyatdan keçənlərdən 76 nəfəri Yeni Azərbaycan Partiyasının müşahidəçiləridir. Digər partiyalardan da müşahidəçilər var. Eyni zamanda, 100 nəfərdən çox vətəndaş öz təşəbbüsü ilə müşahidə aparmaq üçün müraciət edib. Biz onların hamısının sənədlərini qəbul etmişik, vəsiqə vermişik. Onların seçki günü həmin məntəqələrdə müşahidəçilik aparması üçün səlahiyyəti var. Məşvərətçi səs hüququ olan komissiya üzlərinin sayı 39-dur.

***– Dairə ərazisində qeydiyyatda olan ən yaşlı və parlament seçkilərində ilk dəfə səs verəcək seçicilərlə bağlı məlumatlar nədən ibarətdir?***

– 15 saylı Yasamal birinci seçki dairəsi üzrə yaşı 80-100 aralığında olan seçicilərin sayı 903 nəfərdir. Sentyabrın 1-də ilk dəfə səs verəcək seçicilərin sayı isə 509 nəfərdir.

***Səxavət HƏMİD***
***XQ***

# MSK şəffaf fəaliyyət göstərir

**Bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Milli Məclisə qarşıdan gələn seçkiləri izləmək üçün Azərbaycanda səfərdə olan Müstəqil Dövlətlər Birliyi (MDB) baş katibinin müavini Nurlan Seytimovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.**



O, rəhbərlik etdiyi qurumun daim şəffaf fəaliyyət göstərdiyini, əməkdaşlığa açıq olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələrə mühüm əhəmiyyət verən MSK münasibətləri bundan sonra da davam etdirmək və daha da dərinləşdirmək niyyətindədir.

N.Seytimov rəhbərlik etdiyi missiyanın uzunmüddətli müşahidəçilərinin artıq fəaliyyətə başladığını, paytaxt Bakıda və regionlarda seçkilərə hazırlığı yaxından izlədiklərini deyib.

Sədr M.Pənahov Milli Məclisə seçkilərin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçirildiyini diqqətə çatdırıb, seçki komissiyalarının fəaliyyət prinsipləri, müxtəlif statuslu seçki iştirakçılarını əhatə edən genişmiqyaslı maarifləndirmə layihələri, seçici siyahılarının dəqiqləşdirilməsi istiqamətində atılan addımlar və son hazırlıq işlərindən danışıb, eləcə də beynəlxalq müşahidəçilərin suallarını cavablandırıb.

***XQ***

# Həmyerlilərimiz seçki marafonunu diqqətlə izləyirlər

**"Sentyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilər bütün dünya azərbaycanlılarının diqqət mərkəzində olacaq". Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasında Azərbaycanlılar Konqresinin fəxri prezidenti Şahin Məmmədov deyib.**

O vurğulayıb ki, Azərbaycan demokratik inkişafa nail olmuş ölkədir: "Azərbaycan böyük seçki təcrübəsinə malikdir. Müstəqillik əldə etdikdən sonra ölkəmizdə beynəlxalq hüquqa əsaslanan seçki qanunvericiliyi formalaşıb. Bunun əsasında dəfələrlə prezident, parlament və bələdiyyə seçkiləri keçirilib. Bu seçkilərin hər biri beynəlxalq və yerli müşahidəçilər tərəfindən izlənilib və müsbət rəy verilib. Bütün bunlar Azərbaycanda seçkiöncəsi mühitin yaxşı olmasını və seçki günlərində qaydalara riayət olunmasını sübut edir. Əminəm ki, sentyabrın 1-də soydaşlarımız layiqli namizədlərə səs verəcəklər. Xalqımız bununla bir daha dünyaya demokratiya nümayiş etdirəcək".



Ş.Məmmədov bildirib ki, yerli medianı izlədikdə seçkilərlə bağlı fəallıq müşahidə olunur: "Artıq ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub, bütün tarixi torpaqlarımız geri qaytarılıb. Ona görə də Azərbaycanın bütün ərazisində Milli Məclisə seçkilərin keçirilməsini mühüm tarixi hadisə sayıram. Azad olunmuş ərazilərə qayıdan vətəndaşlarımız öz doğma yurdlarında səsvermə hüququndan istifadə edə biləcəklər. Bütün bunlar bizi qürurlandırır".

***XQ***

# Məntəqələr seçkiyə hazırdır

**"Seçki dairəsinin inzibati ərazisində 57 seçki məntəqəsi fəaliyyət göstərir". Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 2 saylı Şərur-Kəngərli dairə seçki komissiyasının sədri Kənan Qəhrəmanov deyib.**



O bildirib ki, seçki məntəqələrinin 43-ü Şərur, 14-ü isə Kəngərli rayonunun ərazisində yerləşir. Seçki məntəqələrinin bir qismi veb-kameralarla təchiz olunub. "Bu seçki dairəsi üzrə 12 nəfər imza vərəqəsi götürmüşdü. Onlardan 11-nin namizədliyi qeydə alınıb. Proses MSK-nın Təqvim Planına əsasən aparılır. Dairə və məntəqə seçki komissiyalarının üzvlərinin iştirakı ilə treninqlər keçirilir. Komissiya üzvlərinə hüquq və vəzifələri, seçki prosesində, səsvermə və səslərin sayılması zamanı qanunvericiliyə uyğun davranışları izah edilir", – deyən DSK sədrinin sözlərinə görə, 2 saylı dairədəki seçki məntəqələrinin hamısı, demək olar ki, seçkiyə hazırdır.

***XQ***

# Anar: Qarabağ ölkənin seçki həyatına qayıdır

***"Cari ilin fevral ayında keçirilmiş Prezident seçkiləri işğaldan azad edilmiş əraziləri də əhatə etməklə tarixə yazılan ən mühüm hadisə oldu. Bu, Böyük Qayıdışın ən vacib məqamlarındandır".***

Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı, ictimai xadim Anar Rzayev deyib.



"Budəfəki seçkilərdə əsas məqam budur ki, işğaldan azad edilmiş bölgələrdən olan seçicilərin bir qismi dəstəklədikləri namizədlərə doğma yurdlarında səs verəcəklər" – deyən AYB sədri Azərbaycanda keçirilən seçkilərin ənənəvi olaraq demokratik prinsiplərə uyğun təşkil edildiyini və bunu yüksək qiymətləndirdiyini vurğulayıb.

***XQ***

# Seçki xəbərləri

## Xankəndidə ilk səsvermə olacaq

"Yeddinci çağırış Milli Məclisə seçkilər 122 saylı Xankəndi Seçki Dairəsinin 14 saylı seçki məntəqəsi üçün ilk parlamentə səsvermə kimi əhəmiyyət daşıyır". Bunu "Seçki



2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 14 saylı məntəqə seçki komissiyasının sədri İmran Mirzəyev deyib. Seçki məntəqəsinin Xankəndi şəhərinin inzibati ərazisini əhatə etdiyini bildirən sədr seçicilərin rahat və azad seçim etmələri üçün lazımi şəraitin yaradıldığını vurğulayıb.

## 500 müşahidəçi seçkiləri Qarabağda izləyəcək



"Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyası sentyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərdə işğaldan azad olunmuş ərazilərdə müşahidə aparacaq. "Seçki 2024" Müstəqil Media Mərkəzi məlumat verir ki, prosesdə Naxçıvan MR-də daxil olmaqla ölkə üzrə 75 seçki dairəsində 500 nəfər müşahidəçi iştirak edəcək. Müşahidəçilərin əksəriyyəti QHT üzvləri, fəalları və könüllüləridir. Koalisiya aralıq və yekun hesabatlar hazırlayacaq. Beynəlxalq auditoriyaya əlçatan olması üçün hesabat ingilis dilində də çap olunacaq.

## Səbaildə növbəti treninq

Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar 7 saylı Səbail seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının üzvləri üçün treninq təşkil edilib. Avqustun 15-dək davam edəcək təlimlərin məqsədi seçki komissiyaları üzv-



lərinin məlumatlılığının və peşəkarlığının artırılmasıdır. Treninqlərdə, ümumilikdə, 41 məntəqədən 248 nəfərin iştirakı nəzərdə tutulub.

***XQ***

# Beynəlxalq elmi əməkdaşlıq

## Türk Dövlətləri Təşkilatı kontekstində

II MƏQALƏ

### Yeni əməkdaşlıq fəlsəfəsi

Türk dövlətləri arasında əməkdaşlığın yeni fəlsəfəsi gəlişigözəl söz deyil. Eyni zamanda, söhbət geniş anlamda hansısa yeni fəlsəfi sistem yaratmaqdan da getmir. Burada əsas fikir müasir mərhələdə türk dövlətləri arasında elm sahəsində elə əməkdaşlıq modeli hazırlamaqdan gedir ki, onun nəticəsi üç miqyasda faydalı olsun: birinci, hər bir türk dövləti miqyasında fayda versin; ikinci, Türk Dövlətləri Təşkilatı (TDT) özünüinkişaf etdirən açıq sistem kimi fayda götürsün; üçüncü, bütövlükdə dünya miqyasında elmə fayda verilsin.

Əlbəttə, nəzəri olaraq bu cür fikir konstruksiyasını qura bilərik. Lakin onun praktiki tətbiqi də ayrıca bir məsələdir. Çünki tətbiqi aspektdə fayda verə biləcək münasibətlər mexanizmini müəyyənləşdirmək lazım gəlir.

Digər tərəfdən, türk dövlətləri indiyə qədər TDT formasında təşkilata malik olmamışlar. Yəni bu istiqamətdə təcrübə yoxdur. Onda həmin təcrübə canlı, eksklüziv olaraq fəaliyyətin gedişində formalaşmalıdır. Bu da ayrıca bir problemdir.

Nəhayət, TDT daxilində elmi əməkdaşlığın inklüzivliyi təmin edilməlidir. Bu, elmi fəaliyyətin hüquqi tərəfini aktuallaşdırır. Məsələ onunla bağlıdır ki, TDT daxilində elmi fəaliyyət kollektiv formada mümkündür. Bir neçə ölkənin alimlərinin ortaq fəaliyyəti üzv ölkələrin hər birinin cəmiyyətinin hüquqi legitimliyini almalıdır. Toplumlar bu cür elmi əməkdaşlığı qəbul etməli və onun perspektivinə inanmalıdırlar.

Məsələnin bu tərəfi müasir cəmiyyətlərin qarşılıqlı əlaqəsində ortaq kriteriyaların hazırlanmasını və onların hər bir üzv dövlət tərəfindən qəbul edilməsini nəzərdə tutur.

Bütün bunlar cəm halında regional və multiregional mahiyyətli təşkilatlarda elmi əməkdaşlığın yeni fəlsəfəsini yaratmağı zəruri edir.

### İlk təşəbbüsün subyekti

I məqalədə "türk dövlətləri elmi məkanı" anlayışının məzmunu və yuxarıda vurğuladığımız bir sıra fəlsəfi məqamlar meydana bir sual da çıxarır: TDT-də əməkdaşlıq nümunəsini yaratmaq istiqamətində proses gedirmi? Yaxud, hələ də türk dövlətləri sovet dönəmində mövcud olan təcrübə əsasında elmi əməkdaşlıq edirlər?

Artıq ilk təşəbbüs vardır və o, Azərbaycan tərəfdən olmuşdur. Konkret olaraq, AMEA sistemli və davamlı şəkildə türk elmi məkanının inkişafını təmin etməyə əsas verən fəaliyyət proqramları həyata keçirməkdədir. Bu tezisin məzmununu açmaq vacibdir.

TDT-də elmi əməkdaşlığın öz spesifikası mövcuddur. Birincisi, Türkiyənin elmi təcrübəsi digər üzv dövlətlərin elmi təcrübəsindən fərqlənir. Türkiyə əsas olaraq Qərbin elmi fəaliyyət nümunəsinə istiqamətlənmiş və onun elmi strukturlarına inteqrasiya olunmuşdur. Bura elmi fəaliyyətin təşkilati özəlliklərindən tutmuş, alınan nəzəri nəticələrin praktiki tətbiqi mexanizmləri və beynəlxalq elmi qiymətləndirmə sistemlərində iştiraka qədər geniş parametrlər çeşidi vardır. Türkiyə, məsələn, TDT-nin digər üzvlərindən fərqli olaraq uzun illərdir ki, indeksli jurnallar bazalarında oturuşmuşdur. Hətta Türkiyənin özünün beynəlxalq indeksli elmi bazası mövcuddur – ULAKBİM. Bundan başqa, Türkiyədə impaktfaktorlu (yüksək beynəlxalq elmi indeksli) jurnallar mövcuddur. TDT-nin digər üzvləri həmin sahəyə hələ yeni daxil olurlar.

Bunlarla yanaşı, Türkiyədə elmi nəticələrin qiymətləndirilməsi, elmi kadrların attestasiyası və s. sahələr Türkiyənin daha dinamik, çevik və nəticəverici mexanizm üzrə həyata keçirilir. Son illər qardaş ölkənin xüsusilə yüksək texnologiyalar və hərbi sistemdə süni intellektin istifadəsi sferasında əldə etdiyi uğurlar dünya miqyasında maraqla qarşılanmışdır.

Belə çıxır ki, elmi əməkdaşlıq sistem və fəlsəfə olaraq TDT daxilində bircins (oxşar element və mexanizmlər toplusu) deyildir – Türkiyə digərlərindən fərqlənir. Bununla yanaşı, TDT-nin digər üzvləri – Azərbaycan, Qazaxstan, Özbəkistan və Qırğızıstan elmi mentalitet baxımından oxşardırlar. Biz müşahidəçi statusunda olan Türkmənistan və Macarıstanı hələlik bura aid edə bilmirik, baxmayaraq ki, Türkmənistanla da eyni elmi mentalitetə malikik. Lakin onu da qeyd edək ki, Türkmənistan Elmlər Akademiyası müəyyən məsələlərdə TDT üzvlərinin elmi qurumları ilə yeni əsasda əməkdaşlıq edir.

Məsələn, 2024-cü ildə Türkmənistan Elmlər Akademiyasının prezidenti AMEA-da olmuşdur və Məhtimqulu Fəraqiyə həsr edilmiş konfransda iştirak etmişdir. Bundan sonra AMEA prezidentinin də Türkmənistana səfəri olmuşdur.

Bunlardan təbii olaraq yeni bir sual yaranır: TDT daxilində olan iki elmi əməkdaşlıq nümunəsini sintez etmək mümkündürmü?

### 2 nümunənin sintezi

Həmin sintezin fəlsəfəsi AMEA-da hazırlanmışdır. Azərbaycan tərəfinin başladığı bu prosesin bir-birini tamamlayan üç miqyası mövcuddur.

Birincisi, Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf konsepsiyasının müddəalarında ifadə edilən türk dövlətləri ilə elmi əməkdaşlığı inkişaf etdirmək fikri ilə əlaqəlidir. 2024-cü ildə Azərbaycan Prezidenti konseptual olaraq "TDT-ni yeni tarixi mərhələdə daha da gücləndirmək" müddəasını strateji inkişafın tərkibinə daxil etmişdir.

İkincisi, dövlət başçısının müəyyən etdiyi strateji inkişaf kursunun şərtlərinə və eyni zamanda, Prezident İlham Əliyevin verdiyi müxtəlif sərəncamlar və imzaladığı fərmanlara əsaslanaraq, AMEA rəhbərliyi yeni tarixi mərhələdə Türk dünyası ilə elmi əlaqələri və həm də AMEA-da "Türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsi, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsi" prioritet vəzifə kimi qarşıya qoymuşdur.

Bu vəzifə AMEA Rəyasət Heyətinin 29 fevral 2024-cü il ümumi yığıncağının qərarlarında daha konkret ifadəsini 5.2.1.2. bənddə tapmışdır. Orada vurğulanmışdır: "Beynəlxalq əlaqələrin inkişafı istiqamətində islahatlar çərçivəsində AMEA-nın elmi müəssisələri ilə Beynəlxalq Türk Akademiyası, Türkiyə Elmlər Akademiyası, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu, TUBİTAK və Orta Asiya Respublikalarının Elmlər Akademiyaları arasında elmi əməkdaşlığın genişləndirilməsi, birgə tədqiqatların, digər elmi və elmi-təşkilati tədbirlərin həyata keçirilməsi davam etdirilsin".

Belə görünür ki, Azərbaycan geniş anlamda Türkiyənin elmi qurumları ilə Mərkəzi Asiya türk dövlətlərinin elmi qurumlarının eyni standarta malik olmaları istiqamətində addımlar atır. Bu, faktiki olaraq eyni təşkilat daxilində mövcud olan iki fərqli elmi fəaliyyət və əməkdaşlıq nümunələrini "bir araya gətirmək" deməkdir.

Burada seçilən bir maraqlı xüsusiyyəti görmək olar. AMEA TDT-də vahid elmi məkanı formalaşdırmaq üçün ilk növbədə təşkilati səviyyədə əlaqələrin inkişafına üstünlük verir. Strateji baxımdan çox əhəmiyyətli və maraqlı yanaşmadır və olduqca aktualdır. Bu yanaşmanın əməkdaşlıq fəlsəfəsinin mərkəzi müddəası olduğunu düşünürük. Çünki elmi təşkilatların ortaq fəaliyyət mexanizmlərinə malik olması ilk şərtdir. Bunun için avtomatik olaraq, elmi yaradıcılığın, fəaliyyətin, alınan nəticələrin tətbiqinin ortaq standartları yaradılmalıdır. Həm də özlüyündə koordinasiyalı fəaliyyət təmin edilməlidir. Ortaq standartlar əsasında koordinasiyalı fəaliyyətin təmini faktiki olaraq yekunda vahid elmi məkan yaradacaqdır. Avropa təcrübəsi bu tezisin doğruluğunu təsdiq edir!

Bununla yanaşı, AMEA-nın vahid türk elmi məkanı yaratmaq məsələsində təşkilati əməkdaşlıq səviyyəsinə üstünlük verməsi üçüncü miqyasda əməkdaşlığa konkret məzmun verir.



Üçüncüsü, AMEA konret fəaliyyət proqramları ilə TDT üzvləri ilə əlaqələri qurur və inkişaf etdirir. "Konkret proqramlar" ifadəsi özündə elmi yaradıcılığı, elmi fəaliyyətin təşkilini, alınan nəticələrin ortaq standartlarla praktiki tətbiqini (ortaq innovasiya mühitinin yaradılması) və Türk dünyasına aid olan görkəmli tarixi şəxsiyyətlərin, elm, mədəniyyət, təhsil üzrə görkəmli alimlərin, şair və yazıçıların yaradıcılıqlarına yenidən türk mənəvi-mədəni-tarixi bütövlüyü kontekstində baxmağı nəzərdə tutur. Bu istiqamətdə konkret işlər görülməkdədir. Həmin prosesdə TDT çərçivəsində vahid yaradıcı komandanın formalaşması prinsipial əhəmiyyət daşıyır.

### Vahid yaradıcı komanda uğrunda

Avropa təcrübəsində, I məqalədə vurğuladığımız kimi, "Horizon 2020" timsalında vahid yaradıcı komanda yaratmaq təcrübəsi mövcuddur. Eyni zamanda, Avropada daha uzunmüddətli fəaliyyət tarixçəsi olan başqa bir nümunə də vardır. Biz, 1954-cü ildə yaradılmış və 20(!) Avropa ölkəsinin maliyyələşdirdiyi "Nüvə Tədqiqatlarının Avropa Mərkəzi" (CERN) adlı təşkilatı nəzərdə tuturuq. Bundan başqa, CERN-də İsrail, Hindistan, Rusiya, ABŞ, Türkiyə, Yaponiya, Avropa Komissiyası və UNESCO müşahidəçi statusundadırlar. Ümumiləşdirsək, məlum olar ki, CERN faktiki surətdə Avropaya aid elmi təşkilatdır, lakin onun fəaliyyət əhatəsində dünyanın 29 (!) ölkəsi vardır.

CERN-in əldə etdiyi elmi nəticələr heyrətamizdir. Sadəcə, 2012, 2014 və 2015-ci illərdə bu təşkilat yüksək qiymətləndirilən 3 kəşfə imza atmışdır. 2012-ci ildə Hiqqsin bozon elementar hissəciyini, 2014-cü ildə "tetrakvark"ı, 2015-ci ildə isə "pentakvark" adlı elementar hissəciyi kəşf etmişlər.

Həmin təşkilatın fəaliyyət təcrübəsi göstərir ki, uyğun şərait, maliyyələşmə və yaradıcılıq mühiti olanda hətta çox sayda üzvü olan böyük kollektiv vahid yaradıcı sistem (şəbəkə) kimi səmərəli fəaliyyət göstərə bilər.

Eyni zamanda, CERN-in tarixi göstərir ki, uğurlu regional elmi təşkilat yüksək cəlbedicilik imkanlarına malikdir və dünyanın hər yerindən alimləri öz "yaradıcılıq orbiti"nə cəlb edə bilir.

Təbii ki, Avropanın bu elmi təcrübəsi başqa təşkilatlara bir nümunədir. Eyni fikri biz digər Avropa təcrübəsi olan "Horizon"a da aid edə bilərik. "Horizon" daha geniş araşdırma sahəsinə malikdir. Onun 3 əsas prioritet istiqaməti mövcuddur. Birinci, aparıcı elm (Excellent Science), ikinci, industrial liderlik (Industrial Leadership), üçüncü, sosial çağırışlar (Societal Challenges).

"Aparıcı elm" istiqamətinin prioritetləri sırasında elmin təşviqi, tanınmış alimlərə və onların yaradıcı qruplarına dəstək, birgə araşdırmaların maliyyələşməsi və s. daxildir. Göründüyü kimi, 3 istiqamətdə Avropa alimlərinə həm komanda halında fəaliyyətdə, həm maliyyələşmədə ciddi dəstək vardır. Bunun üçün Aİ 24,5 milyard avro vəsait ayırmışdır.

"İndustrial liderlik"də ən yeni texnologiyalar üzrə sərmayələrin cəlb edilməsi kimi proqramlar yer almışdır.

"Sosial çağırışlar"da isə cəmiyyətin öyrənilməsində mövcud bilik resurslarını birləşdirmək və onu konkret sosial araşdırmaya fokuslandırmaq nəzərdə tutulmuşdur.

Deməli, Avropa faktiki olaraq özünün tarixi, elmi, sosial, iqtisadi, mədəni, mənəvi və başqa istiqamətlərdə region kimi elmi tədqiqinə ciddi önəm verir.

Eyni təcrübənin Türk Dövlətləri Təşkilatına da aid edilməsi tamamilə təbii və vacib görünür.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Baş prokuror Yasamalda qəbul keçirib

**Avqustun 13-də baş prokuror Kamran Əliyev Yasamal Rayon Prokurorluğunda bu rayonun və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda 49 vətəndaş iştirak edib. Onların müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib. Eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

*XQ*

# Göygöl yaylağında "Ənənə" yay düşərgəsi



**Göygöl rayonunun Milli Yaylaq Festivalı ərazisində şəhid övladları üçün "Ənənə" yay düşərgəsi fəaliyyətə başlayıb. İstirahət və maarifləndirmə aksiyası "YAŞAT" Fondunun təşkilatçılığı, Göygöl Rayon İcra Hakimiyyətinin, "Cavad xan" Tarix və Mədəniyyət Fondunun tərəfdaşlığı, "Bakcell"in hamiliyi ilə keçirilir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən verilən məlumata görə, hərbi vətənpərvərlik və milli ənənələr mövzusunda təşkil olunan düşərgədə 50-dək şəhid övladı iştirak edir. Açılış mərasimində "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev və digər qonaqlar iştirak ediblər.

Bildirilib ki, 5 gün davam edəcək düşərgədə iştirakçılar üçün oxatma, atçılıq və digər qədim milli oyun növləri üzrə yarışlar keçiriləcək. Məqsəd uşaqlara vətənpərvərlik hissi və milli-mənəvi dəyərlərin aşılanmasıdır.

Xatırladaq ki, "YAŞAT" Fondunun təşkilatçılığı ilə şəhid övladları üçün bundan əvvəl Londonda yay məktəbi, Antalyada isə yay düşərgəsi təşkil edilib. Qurum şəhid övladları üçün mütəmadi olaraq düşərgələr, müxtəlif kurslar, layihələr və təlimlər təşkil edir, onların yüksək səviyyəli təhsilinə dəstək göstərir.

*XQ*

# Fazil Mustafaya qəsd edənlər cəzalandırıldılar

**Milli Məclisin deputatı Fazil Mustafaya qarşı törədilmiş cinayətlə bağlı məhkəmə araşdırması başa çatıb. Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən sonuncu iclasda hökm oxunub.**



Hakimlər bəyan edib ki, müttəhimlərə verilmiş ittihamlar kifayət qədər dəlil və sübutlar, həmçinin şahid ifadələri ilə təsdiqini tapıb. Bu əsasla müttəhimlərin hər biri ayrı-ayrılıqda ictimai xadimin siyasi fəaliyyətinə son qoymağı planlaşdırmaqda və digər verilmiş ittihamlarla cəzalandırılmalıdırlar.

Hökmə əsasən, Azər Səricanov ömürlük, Səbuhi Şirinov 20 il, Rəşad Əhmədov 19 il, Elşad Əsgərov 18 il, Emin Əliyarov isə 4 il müddətinə azadlıqdan məhrum ediliblər.

Müttəhimlər cəzalarını həbsxanada və ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkəcəklər.

Xatırladaq ki, cinayət ötən ilin martında baş verib. Həmin vaxt millət vəkili olan Mustafayev Fazil Qəzənfər oğlu silahdan açılan atəşdən xəsarət alıb.

Dövlət Təhlükəsizliyi Xidməti hadisəni terror aktı adlandırıb. Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində hadisədə şübhəli bilinən 5 nəfər tutularaq istintaqa təhvil verilib. Onlara qarşı Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə ittiham irəli sürülüb.

# Azərbaycanın yüksəliş marafonu davam edir

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, cari ilin birinci yarısında Azərbaycanda ümumi daxili məhsul (ÜDM) istehsalı 59,5 milyard manat təşkil edib. Sahələr üzrə ÜDM istehsalına diqqət yetirilsə, sənaye sektorunun (38,5 faiz) digərlərini dəfələrlə qabaqladığı aydın görünər. Belə ki, 2024-cü ilin I yarımilində sənaye sektoru üzrə ÜDM istehsalı 22,9 milyard manat təşkil edib.

MTM-də aparılan təhlil zamanı məlum olub ki, ÜDM istehsalında informasiya və rabitə sektoru (1,7 faiz) ən az paya sahib olsa da, 2024-cü ilin I yarımilində bu sektorun ÜDM istehsalında həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 8,8 faiz və ya 83,9 milyon manat artaraq 1 milyard manatı ötüb.

Hesabat dövründə neft-qaz sektoru üzrə ÜDM istehsalı 20,7 milyard manat olub və bu, ümumi ÜDM istehsalının 34,8 faizini təşkil edib. Qeyri neft-qaz sektoru üzrə ÜDM istehsalı isə ötən ilin ilk 6 ayı ilə müqayisədə 7,3 faiz və ya 2,6 milyard manat artaraq 38,8 milyard manata çatıb. Keçən ilin I yarımilində qeyri-neft-qaz sektorunun ÜDM istehsalında payı 60 faiz idisə, cari ilin eyni dövründə bu rəqəm 65,18 faiz yüksəlib.

Son 5 ilin I yarımillərində adambaşına düşən ÜDM həcmi ilə bağlı göstəricilərə gəldikdə isə ən yüksək nəticənin 2022-ci ildə qeydə alındığını görərik. Həmin ilin ilk 6 ayında adambaşına düşən ÜDM həcmi 2021-ci ilin eyni dövrü ilə müqayisədə 58,1 faiz və ya 2317,3 manat artaraq 6304,9 manata çatıb. Cari ilin ilk 6 ayına olan göstəricilərə görə, adambaşına düşən ÜDM həcmi 5840,7 manat təşkil edib.




ÜDM-lə bağlı proqnozlar da diqqət çəkir. Belə ki, 2024-cü ildə ölkəmizdə ÜDM istehsalının real artımı 3,8 faiz olmaqla nominal ifadədə 121,3 milyard manata çatacağı gözlənilir. Bu, dövlət büdcəsinin layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 3 milyard manat çoxdur.

Maliyyə Nazirliyinin cari ilin sonuna olan gözləntiləri ilə bağlı arayışında daha sonra deyilir: "Qeyri-neft ÜDM-i 84,7 milyard manat (əvvəlki proqnoza nəzərən 0,6 milyard manat çox) səviyyəsində gözlənilir. Qeyri-neft-qaz sektoru üzrə ÜDM-in real artım tempinə dair proqnoz 4,6 faizdən 5,5 faizə qaldırılıb".

Arayışda, həmçinin qeyd edilir ki, 2023-cü ilin oktyabr ayında cari ilin dövlət büdcəsi layihəsinə baxılarkən İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunan proqnozlara əsasən, ÜDM 118,4 milyard manat, qeyri-neft-qaz ÜDM-I 84,2 milyard manat, real artım tempi isə müvafiq olaraq 2,4 faiz və 4,6 faiz səviyyəsində idi. Lakin 2023-cü ildə istehsal olunan ÜDM-in ehtimal edildiyindən artıq olması, 2024-cü ilin ilk 6 ayında qeydə alınan makro-fiskal nəticələr, eləcə də qlobal miqyasda iqtisadi artımla, eyni zamanda, enerji daşıyıcılarının qiymətləri ilə bağlı bu ilin sonuna gözləntilər cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsini şərtləndirib.

Maliyyə Nazirliyindən bildirildiyinə görə, 2024-cü ildə qlobal artım üzrə Beynəlxalq Valyuta Fondu tərəfindən cari ilin iyul ayında verilmiş proqnoz aprel ayına nəzərən dəyişməz saxlanılıb (3,2 faiz), Dünya Bankı isə cari ilin iyun ayında qlobal artım proqnozunu ilkin təqdim edilən proqnozla müqayisədə 0,2 faiz artıraraq 2,6 faiz səviyyəsində müəyyənləşdirib.

Bu ilin ilk yarısında geosiyasi-geoiqtisadi gərginliyin və ticari fraqmentasiyaların hökm sürməsi, qlobal əmtəə bazarlarında qiymət tərəddüdlərinin müşahidə olunması, nəhayət, disinflyasiya meyillərinin zəifləməsi qlobal iqtisadi gözləntilərlə bağlı qeyri-müəyyənliyə təsir edən amillər olub.

Beynəlxalq maliyyə institutları və agentliklərinin son proqnozlarına əsasən, xam neftin bir barelinin orta illik satış qiymətinin 75-85 ABŞ dolları civarında olacağı proqnozlaşdırılır. 2024-cü ilin dövlət büdcəsinin hesablamaları üçün 60 ABŞ dolları səviyyəsində qəbul edilmiş xam neftin bir barelinin orta illik ixrac qiyməti dövlət büdcəsinə yenidən baxılma ilə 75 ABŞ dolları səviyyəsinə artırılıb.

Cari ilin ilk 6 ayında ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyər 59 milyard 520,4 milyon manat olub, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 4,3 faiz artım qeydə alınıb. Dövlət Statistika Komitəsindən bildirilib ki, hesabat dövründə qeyri-neft-qaz sektorunda ÜDM-in həcmi 6,9 faiz artaraq 38 milyard 798 milyon manata bərabər olub. İqtisadiyyatın neft-qaz sektorunda isə real artım 0,6 faiz olub. İlin ilk yarısında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əmtəəlik qaz hasilatı 5,3 faiz artsa da, əmtəəlik neft hasilatında 4,9 faizlik azalma qeydə alınıb. Qeyri neft-qaz sektorunda isə 6,9 faiz artıma nail olunub.

Xatırladaq ki, hesabat dövründə ÜDM istehsalının 38,5 faizi sənaye, 9,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 5,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 19,5 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM isə 5840,7 manata bərabər olub.

Cari ilin yanvar-iyul aylarında isə ölkədə 70 milyard 544 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çox ÜDM istehsal olunub. Dövlət Statistika Komitəsinin məlumatında iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyərin 1,2 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artdığı bildirilib. Əhalinin hər nəfərinə düşən ÜDM 6921,4 manata bərabər olub.

Yeri gəlmişkən, ÜDM-in artımını qeyri-neft-qaz sektorunun inkişafı şərtləndirib. Başqa sözlə, respublikada artımın əsas mənbəyini qeyri- neft-qaz sektoru və qeyri-neft-qaz idxalı təşkil edib. Şübhəsiz ki, bu məsələdə xarici investisiyaların, qabaqcıl texnologiyaların və idarəetmə təcrübəsinin də rolu mühüm önəm daşıyıb. Ölkədə bərqərar olmuş siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici ölkələrdən birinə çevirib.

*XQ*

# Naxçıvan bağlar diyarına çevrilir

## Keyfiyyətli məhsullara xarici bazarlarda tələbat artır



**Naxçıvan tarixən aqrar ənənələri ilə tanınmış regiondur. Təsadüfi deyil ki, muxtar respublikanın kənd təsərrüfatı məhsullarının sorağı təkcə ölkəmizə deyil, ondan kənarlara da yayılıb. Amma təəssüflər olsun ki, ötən əsrin sonlarında bir çox sahələr kimi, aqrar sektor da tənəzzül dövrünü yaşayıb.**

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə bu sahədə müəyyən addımlar atılsa da, müasir dövrdə kənd təsərrüfatının inkişafı yeni dövrün tələblərinə uyğun şəkildə qurulmasını zəruri edir. Buna görədir ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda kənd təsərrüfatı məhsullarının istehsalının və emalının inkişafı 11 prioritet istiqamətdən biri kimi müəyyənləşdirilib. Xüsusilə bu sahədə muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməli sahələrinin müəyyənləşdirilməsi, mütərəqqi kənd təsərrüfatı təcrübələrinin tətbiqi yolu ilə məhsul istehsalının artımına və ixracına nail olunması qarşıya mühüm vəzifə kimi qoyulub.

Naxçıvanın mühüm kənd təsərrüfatı məhsulları içərisində meyvəçilik, o cümlədən üzümçülük mühüm yer tutur. Muxtar respublikanın təbii iqlim şəraiti və spesifik xüsusiyyətləri burada üzümçülüyün inkişafı üçün geniş imkanlar açır. Məhz bu amili nəzərə alan yerli mülkiyyətçilər son illərdə adıçəkilən sahəyə diqqəti daha da artırıblar. Belə aqrar sahibkarlıq subyektlərindən biri də "APF Aqro" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Cəmiyyətin Naxçıvan-Culfa magistral avtomobil yolunun 12-ci kilometrliyində yerləşən əkin sahələrində hazırda üzüm sahələri ilə bərabər, müxtəlif meyvə bağları da mövcuddur.

Müəssisənin direktoru Fərhad Babayev bizimlə söhbətində bildirdi ki, 2015-ci ildən başlayaraq burada salınmış bağların hazırda 260 hektarını üzüm, 21 hektarını alma, 22 hektarını gilas, 37 hektarını badam təşkil edir. Bağ salınmış ərazilərin münbitliyi və ərazinin genişliyi əkin sahələrinin ildən-ilə artırılmasına imkan verir.

Öyrənirik ki, muxtar respublikanın ən böyük bağçılıq subyektlərindən olan bu sahibkarlıq müəssisəsində "Sultanina", "Viktoria", "Cardinal", "Qara kişmiş", "Ağ kişmiş", "Natilde" və digər üzüm sortları yetişdirilir ki, bunların hamısı hazır calaq edilmiş formada Avropadan gətirilib. Bu üzüm sortları keyfiyyətinə, məhsuldarlığına görə fərqlənir. Eyni zamanda, üzüm tingləri 24 dərəcə soyuq temperatura qədər dözümlüdür ki, bu da Naxçıvanın soyuq iqliminə qarşı dayanıqlı hesab edilir. Buna görə də müasir standartlara uyğun olaraq əkilmiş üzüm tinglərini qış fəslində torpaq və ya polietilenlə basdırmağa ehtiyac yoxdur.

Müsahibimin sözlərinə görə, payız mövsümündə üzüm tinglərinin aşağı hissəsi 30 santimetr hündürlükdə torpaqla örtülür ki, burada əsas məqsəd calaq olunmuş hissənin donmamasıdır. Onu da əlavə edək ki, üzüm sortlarının seçilməsində Amerikan tənək ana kökləri üzərində calaq edilən 10 fərqli tez meyvə verən, orta mövsüm və gec meyvə verən keyfiyyətli süfrə üzümü və kişmiş üzümü sortlarına üstünlük verilib. Bitkilərarası məsafələr 1,5 metr, cərgələrarası məsafə isə 3 metr təşkil edir.

Alma bağında salınmış ağaclar da məhsuldarlıq baxımından fərqlidir. Sarı, qırmızı, tünd-qırmızı, yaşıl rənglərdə olan "Golden rinders", "Granny Smith", "Rink Lady", "Galaval Gala" və digər növlərin tingləri də Avropadan gətirilib. Bu tinglərin seçilməsində də muxtar respublikanın iqlim şərtləri nəzərə alınıb.

Babək və Culfa rayonlarının sərhədində yerləşən bu ərazidəki bağların suvarma suyu ilə təmin olunması məqsədilə Culfa rayonunun Bənəniyar və Qızılca kəndlərindən, təxminən, 12 kilometr məsafədən əraziyə su xətti çəkilib, suyun toplanılması üçün burada 3 ədəd min tonluq su çənləri qoyulub.

Əraziyə su 2 nasos stansiyası ilə paylanılır, eyni zamanda, bağın suvarılması damcı üsulu ilə aparılır. Bundan əlavə, sahədə inzibati bina, texnikaların təmiri və saxlanılması üçün anbar yerləşir. Həmçinin burada tədarük olunan məhsulların saxlanılması üçün soyuducu anbarlar fəaliyyət göstərir ki, onlar da müasir texnologiyalar əsasında qurulub.

Fərhad Babayev bildirdi ki, müəssisədə 100-dən çox işçi çalışır, mövsümlə əlaqədar isə hər il ətraf kəndlərdən 150-200 işçi cəlb olunur. Eyni zamanda, burada işçilərin fəaliyyəti üçün lazımi şərait yaradılıb. Onlar inzibati binada yeməkxana, evə gedib-gəlmək üçün nəqliyyat vasitələri ilə təmin olunublar. Bundan əlavə, burada birdəfəlik və çoxdəfəlik plastik yeşik səbətlərin istehsalı müəssisəsi də fəaliyyət göstərir ki, bu da meyvələrin daşınması və saxlanılmasında istifadə edilir.

Bol məhsulun yetişdirildiyi sahələrdə də olduq. Sahibkar məlumat verdi ki, hazırda sahələrdən üzüm tədarükünə başlanılıb. Burada işçilərdən əlavə, 3 aqronom da fəaliyyət göstərir. Ərazidə əkin sahələrinə nəzarət isə müasir texnoloji vasitələrlə aparılır. Məsələn, 6 meteorologiya stansiyası və 26 cüt fərqli torpaq dərinliklərinə yerləşdirilmiş torpaq nəm sensorları ilə bağların iqlim göstəriciləri (torpağın nəmişliyi, havanın temperaturu və s) 24 saat ərzində nəzarətdə saxlanılır. Kiçik günəş panellərindən alınan enerji ilə qidalanan bu meteroloji qurğular bağdakı iqlim və hava proqnozlarını mərkəzə ötürməklə qabaqlayıcı tədbirlərin görülməsini öncədən müəyyənləşdirir.

Sahələrdən toplanılan üzüm müvafiq texnikalar vasitəsi ilə anbarlara daşınaraq orada təmizlənir, çeşidlənərək səbətlərə yığılır və soyuducu anbarlara qoyulur. Gigiyenik qaydalara uyğun hazırlanan məhsul daha sonra böyük yük avtomobillərinə yüklənərək müxtəlif istiqamətlərə yola salınır.

Müəssisədə kişmiş istehsalı da həyata keçirilir ki, burada da üzümün qurudulması əsasən, təbii günəş şüaları altında aparılır. Sonra əldə edilən məhsul kağız paketlərə yığılaraq sifariş yerlərinə göndərilir. Müəssisədə istehsal edilən yüksək keyfiyyətli məhsullar əsasən xarici bazarlara – Rusiya, Ukrayna və Birləşmiş Ərəb Əmirliklərinə göndərilir. Yaxın gələcəkdə Avropa bazarlarına çıxış üçün də danışıqlar aparılır.

Bu sahibkarlıq müəssisəsində yetişdirilən məhsullar daxili bazarın təmin edilməsinə yönəldilib. Təsadüfi deyil ki, ərazidə 19 hektara yaxın qarışıq meyvə bağı da salınıb ki, burada yerli gilas, alma, göycə və digər meyvə növlərinə üstünlük verilib.

Bu sahibkarlıq müəssisəsi həm də aqrar sahə üzrə gənc kadrların hazırlanmasına öz töhfəsini verir. Belə ki, Naxçıvan Dövlət Universitetində müvafiq ixtisas üzrə təhsil alan tələbələr hər il burada fəaliyyət göstərən aqronomların iş təcrübəsi ilə yaxından tanış olur, onların bilik və bacarıqlarını daha yaxından mənimsəməyə çalışırlar. Bu da gələcəyin aqronomlarına praktiki vərdişlərin aşılanması baxımdan əhəmiyyətlidir.

*Səbuhi HƏSƏNOV*
*XQ*

**Naxçıvan**

## Neft məhsulları ixracı 8 faiz çoxalıb




**Cari ilin ikinci rübündə Dövlət Neft Şirkəti (SOCAR) 1,5 milyon tondan çox neft, 862 milyon kubmetrdən çox qaz emal edib.**

Bu barədə SOCAR-ın cari ilin ikinci rübünə dair qazma, hasilat, emal və ixrac göstəricilərində bildirilib. Məlumatda emal olunan qaz həcmlərinin 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz artdığı, neft həcmlərinin isə 1,8 faiz azaldığı qeyd edilib.

SOCAR-ın Azərbaycandakı müəssisələrində istehsal olunan 659 min tondan çox neft, neft-kimya və qaz-kimya məhsulları xarici bazarlara ixrac edilib. İxrac olunan neft, neft-kimya və qaz-kimya məhsullarının ötən ilin analoji dövrü ilə müqayisədə 8 faiz artıb.

## Mənzil tikintisinə və KOB-lara dövlət dəstəyi

**"Fitch Ratings" beynəlxalq reytinq agentliyi İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) fəaliyyətinin yenidən qiymətləndirilməsini həyata keçirib.**




İKZF-dan aldığımız məlumatda qeyd edilir ki, agentliyin qiymətləndirməsinə əsasən, fondun uzunmüddətli xarici və yerli valyutada reytinqi "BB+" səviyyəsindən "BBB-" səviyyəsinədək yüksəldilib. Bu, Azərbaycanın suveren reytinqinin yüksəlməsindən sonra baş verib.

"Fitch"in mövqeyinə görə, reytinqin ölkə reytinqinə bərabər "BBB-" səviyyəsində (proqnoz "stabil") təsdiq olunması fond ilə dövlət arasında möhkəm əlaqənin olmasından və onun əlverişli mənzil təminatı, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsini asanlaşdırmaqla biznes mühitinin inkişafında mühüm strateji əhəmiyyətindən irəli gəlir.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*



COP29
BAKU AZERBAIJAN
NOVEMBER 2024

# "Yaşıl dünya" naminə həmrəylik



# Avropa Azərbaycanı indidən "yaşıl enerji" təchizatçısı kimi qəbul edir

## Ölkəmizin 184 qiqavat təmiz enerji potensialı var

**Ölkəmizin evsahibliyi edəcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransı hazırda bir sıra ölkələrin iqlim dəyişikliyinin təsirlərini azaltmaq, mövcud vəziyyətə uyğunlaşmaq üçün strategiyaların müzakirəsi baxımından fəal platforma rolunu oynayır. Planetin demək olar ki, hər bir ölkəsinin nümayəndə heyəti hər il bir araya gələrək geosiyasi sərhədləri aşan əməkdaşlıq ruhunu gücləndirir. Danışıqlarda əsas məqsəd ölkələri istixana qazı emissiyalarını azaltmağa istiqamətləndirən məcburi öhdəliklər və çərçivələr yaratmaqdır.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "yaşıl enerji"yə keçid strategiyası, reallaşdırılan layihələr ölkəmizin dünyadakı hərbi-siyasi, iqtisadi təlatümlər şəraitində qlobal investisiya layihələrini uğurla reallaşdırmasının parlaq ifadəsidir. İstifadəyə verilən su, külək və günəş elektrik stansiyaları istər ölkəmizin enerjiyə artan tələbatının ödənilməsi, istərsə də "yaşıl enerji"nin ixracı sahəsində imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Media Təhlil Mərkəzinin (MTM) yaydığı materialda daha sonra bildirilir ki, qlobal əhəmiyyətli "yaşıl enerji" layihələrinə maraq, eyni zamanda, Azərbaycanın alternativ və bərpaolunan enerji istehsalı sahəsində zəngin potensiala malik olmasının bariz nümunəsidir. Respublikamız son illərdə bu sahənin inkişafına daha çox investisiya yönəltməklə, perspektivdə Avropanın elektrik enerjisi ilə təchizatında mühüm rol oynamaq niyyətindədir.

Son 3 ildə Birləşmiş Ərəb Əmirliklərinin dünyada tanınan, böyük təcrübəsi olan, 30-dan artıq ölkədə "yaşıl enerji" layihələri həyata keçən "Masdar", eləcə də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətlərinin Azərbaycana böyük həcmdə investisiya yatırmaları ölkəmizdə münbit investisiya iqliminin mövcudluğunu bir daha təsdiqləyir. Eyni zamanda, dünyanın əksər ölkələri və nüfuzlu şirkətləri tərəfindən Azərbaycan öhdəliklərinə sadiq etibarlı tərəfdaş kimi qəbul edilir.

Ümumi investisiya dəyəri 500 milyon dollardan çox olan 240 MVt gücündə "Xızı-Abşeron" Külək, 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik stansiyaları ölkəmizdə energetika sahəsində xarici investisiya əsaslı ilk layihələrdir. Bu stansiyaların fəaliyyəti nəticəsində ildə 1,5 mlrd. kVt•st elektrik enerjisinin istehsalı, 330 milyon kubmetrdən çox təbii qaza qənaət edilməsi, 600 min tondan çox karbon emissiyasının qarşısının alınması gözlənilir.

MTM ekspertlərin hesablamalarına əsaslanaraq təqdim etdiyi materialda bildirir ki, Azərbaycanın quruda 27 qiqavatdan çox külək və günəş enerjisi, Xəzər dənizində 157 qiqavat külək enerjisi potensialı var. Qarabağ və Zəngəzurda külək, günəş və hidroenerji potensialı isə 10 qiqavatdan çoxdur. Bu sahədəki zəngin potensialın aşkarlanması, səmərəli istifadəsi ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycanın elektrik enerjisinə artan ehtiyacının əhəmiyyətli dərəcədə ödənilməsinə imkan verəcək.

Azərbaycan alternativ mənbələr hesabına enerji istehsalına xüsusi diqqət yetirməklə istilik elektrik stansiyalarının fəaliyyəti üçün sərf olunan mazut yanacağının və təbii qazın həcminə qənaət etməyi hədəfləyib. Nəticədə, ölkəmizin Avropaya daha böyük həcmdə təbii neft-qaz ixrac etmək imkanı qazanacağı, gəlirlərini artıracağı gözlənilir.



Yeri gəlmişkən, Avropaya "yaşıl enerji" ixracı haqqında bəhs edərkən bir məqamı da xatırlatmaq yerinə düşər. Belə ki, Azərbaycan, Qazaxıstan və Özbəkistan tərəfindən bu yaxınlarda Mərkəzi Asiya ölkələrindən Avropaya "yaşıl enerji"nin ixracı layihəsi üzrə baş ofisi Bakıda yerləşməklə birgə müəssisə yaratmaq barədə razılığa gəlinib. Bu marədə məlumat Mərkəzi Asiya ölkələrinin energetika nazirlərinin birinci iclasında səsləndirilib.

Hazırda Mərkəzi Asiyadan Avropaya "yaşıl enerji"nin ixracı üçün adları çəkilən ölkələrin enerji sistemlərinin birləşdirilməsi layihəsinin icrası istiqamətində işlərə başlanılıb, layihənin ilkin texniki-iqtisadi əsaslandırmasının hazırlanması üçün texniki tapşırıqlar artıq təsdiqlənib. Layihənin texniki-iqtisadi əsaslandırmasının İtaliyanın CESI konsaltinq şirkəti tərəfindən hazırlanması qərara alınıb. Bununla yanaşı, Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində Strateji tərəfdaşlıq haqqında saziş layihəsinin mətni də razılaşdırılıb.

Sənədin imzalanması, şübhəsiz ki, layihənin uğurla həyata keçirilməsini şərtləndirəcək və ölkəmizdən keçən bu və digər ixrac dəhlizlərinin "yaşıl enerji"nin Mərkəzi Asiya ölkələrindən Avropaya ötürülməsi üçün geniş perspektivlər açacaq. Eyni zamanda, bu dəhlizlərə çıxış Mərkəzi Asiya ölkələrinin elektrik enerjisi ehtiyatlarının ixracı üçün bazarların şaxələndirilməsini təmin edəcək.

Beləliklə, Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi "yaşıl enerji"nin istehsalı və respublikamızın ərazisi vasitəsilə Avropaya ixracı, enerji sistemlərinin inteqrasiyası və bərpaolunan resurslardan səmərəli istifadənin təşkili istiqamətində birgə hədəflərin həyata keçirilməsinə təkan verəcək.

Onu da qeyd edək ki, "yaşıl enerji"nin istehsalı və ixracı Azərbaycanın gələcəyi üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycana yatırılan sərmayənin bu gün də müsbət nəticələr verdiyini, ölkə iqtisadiyyatının inkişaf etdiyini və Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadığını Bakı Enerji Forumunda diqqətə çatdıran BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bildirib ki, BP Cəbrayıl və Naxçıvanda günəş elektrik enerjisini istehsalı üçün 200 milyon dollar sərmayə yatırmağı planlaşdırır. İstehsal olunan enerjinin daxili tələbatla yanaşı, ixraca da yönəldiləcəyi nəzərdə tutulur. Hökumətlər və şirkətlər birgə addımlar atsalar, "yaşıl enerji" ilə bağlı həyata keçirilən bütün layihələr də uğurla yekunlaşar.

Xatırladaq ki, Prezident İlham Əliyev çıxışlarının birində Azərbaycanın yaxın gələcəkdə özünün enerji ixracında bərpaolunan enerjinin payını kəskin artırmağı hədəflədiyini, ölkəmizin "yaşıl enerji"inin ixracında da öz rolunu oynayacağını vurğulayıb. "Yaşıl enerji" dəhlizinin, o cümlədən Qara dənizin dibi ilə çəkiləcək kabelin də Azərbaycanın resurslarına hesablandığını diqqətə çatdıran dövlət başçısının sözlərinə görə, Avropa Komissiyasında da "yaşıl enerji"ni ixrac etməklə ölkəmizin önəminin daha da artacağını yaxşı anlayırlar.

***XQ***

**COP29 Əməliyyat Şirkətinin Əməliyyat Şirkətinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycanın noyabrda iqlim sammitinə evsahibliyi etməyə hazırlaşdığı bir vaxtda paytaxt Bakıda cəmiyyəti maarifləndirmək məqsədilə ilk İqlim Fəaliyyəti Həftəsinə hazırlıq görür.**

COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarainin təşəbbüsü ilə təşkil olunan Bakı İqlim Fəaliyyəti Həftəsi sentyabrın 30-dan oktyabrın 4-dək keçiriləcək. Hazırda dünyanın şəhər səviyyəli ən böyük ictimai iqlim tədbiri – London İqlim Fəaliyyəti Həftəsi ilə əməkdaşlıq çərçivəsində təşkil olunan COP29 Sədrliyi iqlim dəyişmələri ilə bağlı ambisiyaları artırmaq və fəaliyyətə təkan vermək üçün bu tədbirin uğurlu olmasına çalışır. COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev isə bildirib ki, respublikamız üçün bu qədər önəmli bir ildə Bakı İqlim Fəaliyyəti Həftəsinin keçirilməsi ölkəmizdə iqlim dəyişmələrinə qarşı mübarizəni sürətləndirmək məqsədilə dövlət səviyyəsində aparılan müzakirələrin genişləndirilməsi baxımından növbəti mühüm mərhələdir.

# İqlim Fəaliyyəti Həftəsi COP29 hədəflərinə işıq salacaq



Bakı İqlim Fəaliyyəti Həftəsində yüksək səviyyəli beynəlxalq konfransların, eləcə də çoxtərəfli yerli və icma yönümlü tədbirlərin keçirilməsi planlaşdırılır.

COP29 Sədrliyinin sıx qrafiki fonunda keçiriləcək Bakı İqlim Fəaliyyəti Həftəsində iqlim dəyişmələri ilə mübarizə sahəsində həm Bakı şəhəri, həm də, ümumilikdə, Azərbaycan tərəfindən görülən genişmiqyaslı işlər, habelə iqlim fəaliyyətinə dəstək olmaq üçün beynəlxalq əməkdaşlığın təşviqi ön plana çəkiləcək. Məlumatda vurğulanıb ki, Bakı İqlim Fəaliyyəti Həftəsi Azərbaycanda iqlim dəyişmələrinə qarşı mübarizə tədbirlərini sürətləndirmək üçün dövlət səviyyəsində aparılan müzakirələrin genişləndirilməsi baxımından növbəti əhəmiyyətli mərhələdir.

Tədbir siyasi lider və şirkət rəhbərlərindən tutmuş yerli icma və gənclərə qədər hər kəsi cəlb etməklə yanaşı, Azərbaycanın iqlim dəyişmələrindən irəli gələn cari problemlərini aradan qaldırmaq və "yaşıl" keçidin təklif etdiyi imkanları araşdırmaq üçün maarifləndirici və stimullaşdırıcı platforma olacaq. Bakı İqlim Fəaliyyəti Həftəsinə start veriləcəyini elan edən COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai qeyd edib ki, Azərbaycan cari ilin noyabrında COP29 konfransına evsahibliyi etməkdən şərəf duyur və rinə qarşı mübarizəni sürətləndirmək məqsədilə dövlət səviyyəsində aparılan müzakirələrin genişləndirilməsi baxımından növbəti mühüm mərhələdir.

London İqlim Fəaliyyəti Həftəsi ilə Bakı İqlim Fəaliyyəti Həftəsi arasında əməkdaşlıqla bağlı London İqlim Fəaliyyəti Həftəsinin təsisçisi və sədri, iqlim dəyişmələri sahəsində göstərdiyi səylərə və COP26 (BB) Sədrliyinə göstərdiyi dəstəyə görə Britaniya İmperiyası Ordeninə (OBE) layiq görülən Nik Mabey deyib: "Londonda cəmiyyətin bütün təbəqələrini səfərbər edən bu unikal model Oklend, Sidney və Dublin kimi şəhərlərdə də bənzər həftələrin keçirilməsinə stimul verib. İndi isə Bakıda bu layihə üzərində işləmək bizim üçün qürurverici haldır".

Builki tədbirin əsas mövzuları "Enerji keçidi", "Şəhərlər və urbanizasiya olunmuş mühitlər", "Su təhlükəsizliyi", "Qida və kənd təsərrüfatı", "Kiçik və orta biznes müəssisələri" və "Yaşıl bacarıqlar" olacaq. Həftənin birinci yarısında tədbirdə dövlət qurumları, elmi dairələr və özəl sektor nümayəndələri iştirak edəcək, ikinci yarısında isə incəsənət və mədəniyyət tədbirləri həyata keçiriləcək.

***XQ***

# Meşələrsiz həyat sönər, Yer ölü planetə çevrilər

## Dünyamızın yaşıl libasının taleyi təhlükədədir

**Meşə təbiətin "oksigen fabriki" adlandırılır və planetin quru səthinin üçdə birini tutur. Yer kürəsinin bu qiymətli təbii sərvətinin əsas xüsusiyyətlərindən biri bitki örtüyünün altında formalaşan mikroiqlimdir. Planetin "ağciyərləri"nin mikroiqlimi ətraf mühitin iqlimindən fərqlidir. Belə ki, açıq ərazilərdən fərqli olaraq meşədə qış mövsümündə havanın temperaturu 3-5° C yüksək olur. İsti yay günlərində isə əksinə, hərarət bir neçə dərəcə enir.**

Oksigen, su, qida kimi əsas maddələrin tarazlığı meşələr tərəfindən təmin edilir. Meşələr havadakı karbon qazını və zəhərli maddələri udur, oksigenlə zənginləşdirir, tozdan təmizləyir, torpaqda su balansını nizamlayır, kəskin iqlim dəyişikliyinin, sellərin və torpaq sürüşməsinin qarşısını alır, güclü küləklərin təsirini zəiflədir, sovrulan qum kütlələrinin hərəkətini saxlayır. Bundan başqa, qar örtüyünün bərabər yayılması və tədricən əriməsinə imkan yaradır, buxarlanmanı zəiflədir, qrunt sularının səviyyəsini endirir.

**Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun şöbə müdiri İsmayıl Quliyev bu barədə söhbətinin davamında dedi:**

– Meşələrin qırılması isə əks effekt verir, iqlim dəyişikliyinə, qlobal istiləşməyə və istixana qazı tullantılarının yaranmasına səbəb olur. Eyni zamanda, daşqınlar vəhşi təbiətin tədricən sıradan çıxmasına, insanların həyat keyfiyyətinin aşağı düşməsinə və biomüxtəlifliyin zəifləməsinə gətirib çıxarır. Nəhayət anlamalıyıq ki, meşələrsiz həyat sönər, Yer ölü planetə çevrilər.



Biomüxtəliflik (BM) ətraf mühitin vəziyyətini və ekosistemin davamlığını qiymətləndirən ən obyektiv amillərdən biri sayılır. BM yer üzərində bütün canlıların – mikroorqanizmin, bitki və heyvanların müxtəlifliyi deməkdir. Təbii sərvətlərin ayrılmaz hissəsi olan BM nəhəng, lakin hələ də tam qiymətləndirilməmiş zəngin ehtiyat mənbəyidir. O, bütün ekosistemləri əhatə etməklə həyatın mövcudluğunun əsasıdır, insanların ərzaq, geyim, enerji və digər materiallarla təminatını gerçəkləşdirir.

Son illərdə insanların fəaliyyəti nəticəsində ekosistemlər deqradasiyaya uğrayıb, bir çox növləri isə məhv olub və ya sayı kəskin azalıb. Bioloji müxtəlifliyin belə sürətlə itkisi həyatın özünü təhlükədə qoymaqla qlobal faciəyə səbəb ola bilər.

BMT-nin ekspertlərinin məlumatına görə, Yer kürəsində təbii meşələrin 45 faizi, əsasən, son illərdə qırılaraq məhv edilib. Dünyamızın yaşıl libasının taleyi təhlükədədir.

Bioloji müxtəlifliyi isə yalnız beynəlxalq əməkdaşlıq yolu ilə xilas etmək mümkündür. Bu məqsədlə Rio-de-Janeyro şəhərində 1992-ci ilin iyun ayında keçirilmiş Yer Zirvə toplantısında ilk dəfə olaraq bioloji müxtəlifliyin qorunması bütün bəşəriyyətin ümumi vəzifəsi və davamlı inkişafın tərkib hissəsi kimi qəbul olunub və müvafiq konvensiya imzalanıb.

Son illərdə Azərbaycanda ekoloji, o cümlədən bioloji müxtəlifliyin problemləri həlli vacib olan prioritetlər kimi müəyyənləşdirilib və bu sahədə xeyli işlər görülüb, "Bitkilərin genetik ehtiyatlarına dair" Dövlət Proqramı, "Ətraf mühitin mühafizəsi üzrə" Milli Fəaliyyət Planı, "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram və digər sənədlər qəbul edilərək icrasına başlanılıb.

Bu gün bitki örtüyünün bioloji müxtəlifliyinin pozulması və ya məhv edilməsi ilə əlaqədar respublikamızın bəzi regionlarında müasir bitki örtüyünün bioloji müxtəlifliyi iqlimə uyğun gəlmir.

Kiçik Qafqazın şimal yamacında vaxtilə məhsuldar iberiya palıdı meşələri yayılmışdı. Hazırda onun yerini qaratikan kolları tutub. Bunun əsas səbəbi oradakı palıdlıqların məhv edilməsi, ərazinin örüş kimi istifadə olunmasıdır.

Meşəsizləşdirilmiş sahələr yamacların meyilliyindən asılı olaraq bu və ya digər dərəcədə eroziyaya da uğrayıb. Belə ərazilərdə antropogen təzyiq dayandırılarsa, bitkinin bioloji müxtəlifliyinin bərpası istiqamətində müəyyən işlər görmək olar. Bu, konkret sahədə bioloji müxtəlifliyin pozulma dərəcəsindən, onun fiziki-coğrafi yerləşməsindən (dəniz səviyyəsindən yüksəkliyindən, yamacın cəhəti və dikliyindən), torpağın pozulma dərəcəsindən və s. asılıdır.

Meşəsizləşdirilmiş dik yamaclarda palıd meşələrinin yerində formalaşan ikinci dərəcəli ağac cinslərindən (əsasən dəmirqara) ibarət ağaclıqları mal-qaradan mühafizə etmək yolu ilə tədricən ilkin palıd meşəsini bərpa etmək mümkündür. Amma onun bioloji müxtəlifliyini əvvəlki vəziyyətinə qaytarmaq çətindir. Hər halda meşələrin bərpası və sahələrinin artırılması atmosferdə oksigenin çoxalmasına, "istixana effekti" yaradan qazların miqdarının tənzimlənməsinə, ən əsası isə iqlim dəyişmələrinin qarşısını almağa kömək edər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Sumqayıt – 75**

# Xəzər sahilində sabahlara boylanan şəhər



**Sumqayıt növbəti yubiley əhvalına köklənib. Noyabrın 22-də Xəzər sahilində salınmış bu gözəl məkana şəhər statusu verilməsinin 75 ili tamam olacaq. Hər bir sumqayıtlı yubileyə öz töhfəsini verməyə çalışır.**

Bu gün Sumqayıt Cənubi Qafqazın 2-ci böyük sənaye şəhəri, Azərbaycanın mədəniyyət mərkəzlərindən biridir. Yarım milyona qədər əhalisi var. Vaxtilə ata-babalarımız Xəzərin sahilində, Abşeron yarımadasının şimalındakı boz çöllüyə bu şəhəri ürəklərində gətirib, arzu və istəklərini ev-ev, bina-bina, küçə-küçə gerçəkləşdiriblər. Doğum şəhadətnamələrinə "Sumqayıt" yazılmış bizlərsə bu şəhəri daha da böyüdüb gözəlləşdirmiş, dünyaya tanıtmışıq.

Ümummilli lider Heydər Əliyevin ideyalarının şəhəri olan Sumqayıt həm sovet dönəmində, həm də müstəqillik illərində sürətli tərəqqi edib. Ulu öndər bu məkanı fəxrlə "kiçik Azərbaycan" adlandırıb. Prezident İlham Əliyev bu gün Sumqayıta daha çox istinad etməklə, ölkənin dinamik inkişaf konsepsiyasını ardıcıl reallaşdırır, zamanın çağırışlarına adekvat olan layihələrlə zənginləşdirir. İldə 2-3 dəfə gənclik şəhərinə səfər edən dövlət başçısı hər gəlişi ilə Sumqayıta xeyir-bərəkət gətirir, iqtisadi, sosial və mədəni obyektlərin açılışını edir, sakinlərlə görüşür. Ötən ilin payızında Sumqayıta 32-ci səfəri zamanı ölkə rəhbəri Kimya Sənaye Parkında yeni müəssisələri işə salıb, təməllər atıb, başdan-başa yenidən qurulan Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yaradılan şəraitlə tanış olub və 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak edib.

Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır. Ərazisi 600 hektara yaxın olan sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir.

Parkda ümumi sərmayələrinin həcmi, təqribən, 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Prezidentin bu səfəri zamanı daha 3 müəssisə açılıb, 2 firmanın təməli qoyulub və işləyən rezidentlərin sayı 23-ə çatıb. Burada buraxılan məhsulların üçdə-birindən çoxu – 35 faizi ixracın payına düşür. Yeri gəlmişkən, Prezident İlham Əliyev 2 həftə öncə Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında yeni sərəncam imzalayıb.

Mədəniyyət və istirahət parkları isə sanki, sənaye parkları ilə yarışa girib. Şəhərin təbəssümü sayılan bu parklar bir-birindən gözəldir. Heydər Əliyev parkı yenidənqurmadan sonra daha da cəlbedici olub. Ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilib, Ulu öndərin abidəsi buraya köçürülüb, Bayraq meydanı tikilib. Gözəl memarlıq üslubunda ucaldılmış Heydər Əliyev Mərkəzi, Poeziya Evi, Şahmat və İncəsənət məktəbləri də buradadır. Parkın 20 min kvadratmetrdən artıq sahəsində yaşıllıq zolağı salınıb, 200-dən çox müasir işıq dirəyi, oturacaqlar quraşdırılıb, 5 min-



dən artıq ağac, dekorativ gül kolu əkilib. Parkda, həmçinin rəngli fontan kompleksi, şahmat meydançası, kafe-çayxanalar var.

Mütəfəkkir şair İmadəddin Nəsiminin adını daşıyan mədəniyyət və istirahət parkı sakinlərin sevimli məkanlarından sayılır. Buranın əyləncə guşələri ilin hər fəslində adama "gəl-gəl" deyir. "Yaşıl teatr", Rəsm qalereyası, "Göyərçin", "20 Yanvar" və "Xocalı" abidələri də burada yerləşir. Şəhidlər xiyabanı parkı daha da urvatlandırıb. Qeyd edək ki, gənclik şəhərinin yüzlərlə övladı Qarabağ uğrunda döyüşlərdə düşmənə qarşı mərdliklə vuruşub. Sumqayıt ictimaiyyəti həmişə müqəddəs döyüşə gedənləri alqışlarla yola salıb, şəhidləri ehtiramla qarşılayıb. İgid oğulların əksəriyyəti yüksək orden və medallarla təltif olunub, onlardan 3 nəfəri Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. "Zəfər ağacı" abidəsinin hər yarpağına bir ölməz igidin adı həkk edilib. Şəhərdə isə 100-ə yaxın küçəyə şəhidlərin adları verilib.

İllərdir ki, məktəblilər müqəddəs xiyabana ziyarətə gəlir, yeni evlənən cütlüklər toydan öncə buradakı "Əbədi Məşəl" və "Qalib əsgər" abidəsi önünə gül-çiçək düzür, şəkil çəkdirir, şəhidlərin ölməz ruhu qarşısında baş əyirlər.

Bələdiyyə parkı hazırkı icra başçısı Zakir Fərəcovun həmin qurumun ilk sədri olduğu vaxtlarda yaradılıb. Əsaslı təmir edilərək Sumqayıt Dövlət Dram Teatrının ixtiyarına verilmiş mədəniyyət sarayının arxasında yerləşən bu məkan da göz oxşayır. Qocalar ötən əsrin 60-70-ci illərində özünün böyük rəqs meydanı ilə tanınan parka gələrək həzin xatirələrə dalır, gənclər və uşaqlarsa istədikləri kimi əylənirlər. Elə bu yaz Sumqayıt Bələdiyyəsi şəhər və park ərazisində 2500 ədəd şəmşid və 1000 ədəd qızılgül kolu və müxtəlif dekorativ gül-çiçək əkib.

Gənclik şəhərində dənizkənarı bulvar kompleksinin yaradılması ən böyük və uğurlu layihələrdəndir. Bir zaman baxımsız görkəmi ilə ürək ağrıdan bulvar artıq ən kütləvi istirahət məkanına çevrilib. Bulvar yaradılarkən qısa müddətdə buraya 60 min maşın torpaq daşınıb, mozaik plitələr döşənib, 100 min ağac, 500 min gül əkilib. Düz 4 kilometrlik bir ərazi əsl gülüstana çevrilib. Gəmi tərsanəsi, hündür estakada tikilib, karusellər, kafelər, kölgəliklər, fəvvarələr, yay estradası yaradılıb.

Prezident İlham Əliyev Sumqayıt bulvarında yaradılanları möcüzə adlandırıb. İstifadəyə veriləndən sonra da burada işlər səngiməyib. Ərazi şəhərin şimal istiqamətində 1 kilometr uzunluğunda, 400 metr enində, ümumilikdə isə 40 hektar sahədə genişləndirilib. Bulvarın uzunluğu 5,2 kilometrə, ərazisi isə 146 hektara çatdırılıb. Ayrı-ayrı guşələrdə nağıl qəhrəmanlarının heykəlləri, fauna fiqurları boy göstərir. "Şahmat oynayan babalar", "Gitaraçı veteran", "Rəqs edən cütlük", "At arabası" və "Marallar" ayrı bir ovqat yaradır. "Sumqayıt Bulvar" MMC-nin işgüzar kollektivi gözəllik məkanının daim səliqə-sahmanlı olması üçün əlindən gələni edir.

**Bulvarboyu "Sahil" küçəsindəki aynabəndləri dənizə baxan yeni binaların sakinləri özlərini əsl kurort məkanındakı kimi hiss edirlər. Burada uşaqlıq dostum – Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri, həkim-yazıçı Hümbət Quliyevlə görüşdüm. O, 75 yaşa çatsa da, daim gəncləşən, doğma şəhəri ilə bağlı duyğu və düşüncələrini həvəslə dilə gətirdi:**

– Hamımız buranı Sumqayıtı qurub-yaradanların "şah əsəri" sayırıq. Ölkə başçısı İlham Əliyev şəhərimizin 70 illik yubileyi keçirilən gün – 2019-cu il noyabrın 21-də bulvara gəlmişdi, biz sakinlərlə unudulmaz görüşü oldu. Qayğıya, yaradılan şəraitə, məhz bu şəhərin yetirməsi olan təcrübəli və təəssübkeş kadrları burada vəzifəyə təyin etdiyinə görə, ölkə rəhbərinə minnətdarlığımızı bildirdik.

Bulvarın axşamları daha ecazkar olur. Təzə evlərin pəncərələrindən süzülən işıqlar bulvarın nur selinə qarışır. Deyim ki, yaradıcı-qurucu insanlar olan sumqayıtlılar bu şəraitə, bu gözəlliyə layiqdirlər. Hər birimizin ürəyi bir neçə ay sonra 75 yaşını qeyd etməyə hazırlaşdığımız doğma şəhərimizə izaholunmaz bir sevgi ilə döyünür. Sumqayıtlı olmağımızla sözün əsl mənasında fəxr edirik.

**Paytaxt Bakıdan qonaqların Sumqayıt bulvarına istirahətə gəlməsinin də dönə-dönə şahidi olmuşuq. Bu dəfə söhbət etdiyimiz Bakı Qızlar Universitetinin tələbəsi Gülarə Məmmədzadə dedi:**

– Sumqayıt bulvarındakı "İsmo-park"ın "Korsan" gəmi-karuselinin sorağı ilə bura gəlmişik. Musiqi, şənlik, adrenalin yaradan yelləncək möcüzəli təsir bağışlayır. İsti yay günlərində buranın sərinliyi adama ləzzət edir, ərazinin genişliyi göz oxşayır. Bu gözəllikləri yaradanlar var olsunlar!

Sumqayıtın dünya miqyasında ekoloji təmiz şəhərlərdən biri olduğu ölkə rəhbəri səviyyəsində dəfələrlə qeyd edilib: "Şəhərdə gəzərkən həm gözəlliyi görürsən, həm də görürsən ki, hava da çox təmizdir. Yəni, Sumqayıtın havası kurort havasına yaxınlaşır. Əminəm ki, Sumqayıtın gələcək inkişafında turizm sektoru da öz rolunu oynayacaq".

Fərəhli haldır ki, artıq bu istiqamətdə mühüm addımlar atılır. Sahilboyu istirahət guşələrinin sayı artır, neçə-neçə yeni otel qonaqlarını qəbul etmək üçün hazırlanır. Addımbaşı əhaliyə xidmət göstərən müasir infrastruktur qurulur, Sumqayıtın daha da gözəlləşməsi işi davamlı xarakter daşıyır.

İdmançılar şəhəri kimi də tanınan Sumqayıtda Mehdi Hüseynzadənin adını daşıyan əsas stadionun yenidən qurulmasına böyük ehtiyac vardı və Prezidentin tapşırığı ilə bu da edildi. İndi 22 sektordan ibarət olan modern tipli stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılıb, tamaşaçı tutumu 9 min 500 nəfərdir, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb. Fərəhli haldır ki, şəhərin yubileyi ilində artıq "Sumqayıt" peşəkar futbol klubu UEFA Konfrans Liqasına vəsiqə qazanaraq qüvvəsini sınayıb.

Bu gün Sumqayıtda yeni bir futbol komandası da yaradılıb. Bu, Corat qəsəbəsinin "Cürət" futbol kollektividir, "AFFA Region Liqası"nda uğurla yarışır. Komanda yeni olsa da, "Sumqayıt" Futbol Akademiyasına 10 nəfərdən çox futbolçu verib. Qədim qəsəbədə yeni "Corat" idman klubu da fəaliyyət göstərir. Xatırlatmaq yerinə düşər ki, 6 dəfə dünya çempionu, 11 dəfə Avropa çempionu olan karateçi Rafael Ağayev, 2008-ci il Pekin Olimpiadasının bürünc mükafatçısı olan boksçu Şahin İmranov, neçə-neçə digər tanınmış idmançı məhz Coratdan çıxmış məşhurlardır. Bu isə deməyə əsas verir ki, estafet layiqincə davam edəcək.

Sumqayıt özü də qədim Coratın əkin və örüş torpaqlarında pərvəriş tapıb, yaraşıqlı, gözəl bir məkana çevrilib. Əslində, Coratın dəqiq tarixini bilən yoxdur. Deyilənə görə, 2 min ildən çox yaşı var. Xəzərin Abşeron sahillərindən Dərbəndə qədər bir ərazini əhatə edən Çora vilayətinin eyni adlı paytaxtı tarixin qədim qatlarında liman və ticarət mərkəzi kimi yer tutub. Hətta Alban katolikosunun iqamətgahı da bu şəhərdə yerləşirmiş. Corat məzarlığındakı pirlər, sandıq qəbirlər bu məkanın çox qədim yaşayış məskəni olduğunu təsdiq edir.

Cümə, Gülxatun, Hacı Kiçikbəy, Hacı Hümbət məscidləri, pir və ocaqlar, qalalar, XIV əsrə aid hamam, ehsanlıq su quyuları və s. qədim abidələr olub. Qədimi məscidlərdən ikisi indi də qalır. Hazırda Cümə məscidi kimi tanınan ibadətgah əsaslı təmir olunub. Qəsəbə sakinlərinin yaxından köməyi sayəsində Gülxanım məscidi də abadlaşdırılıb və möminlərin ixtiyarına verilib. Coratda qədim abidə kimi iki hamam da var. Tarixi mənbələr göstərir ki, qədim "İpək Yolu" da Coratın yaxınlığından keçib.

**Bütün bunları qəsəbənin dəyərli ağsaqqalı Hacı Rüstəm Əliyev dilə gətirdi:**

– Vaxtilə bu ərazilərdə bizim dədə-babalarımıza məxsus meyvə bağları olub, sonralar kolxoz təsərrüfatı yaradılıb. Bu cür qədim tarixə malik olan, abidələrlə dolu məkanlarımızı göz bəbəyi kimi qorumaq lazımdır. Bu gün biz ağsaqqallar bu ərazilərdə ünvan tapmış Sumqayıtla öyünür, fəxr edirik.

**Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının qəsəbə üzrə nümayəndəsi Elvaris Əliyev isə bizə Coratın bugünündən, onun inkişafından, qayğı və problemlərindən söz açdı:**

– Qədim Corat indi özünün yeni həyatını yaşayır. Şəhər icra hakimiyyəyinin başçısı Zakir Fərəcov fəaliyyətə başladığı ilk gündən qəsəbənin problem və qayğıları ilə yaxından maraqlanıb, sakinlərlə, ağsaqqallarla vaxtaşırı görüşlər keçirir. Coratda aparılan quruculuq, abadlıq işləri geniş vüsət alıb. Bütün bunlar əhalinin rahatlığının təmin edilməsi və güzəranının yaxşılaşdırılması üçündür.

Şəhərimizlə yanaşı, qəsəbəmizdə də yol-nəqliyyat infrastrukturunun yenidən qurulması yönümündə işlər həyata keçirilir. Qəsəbədaxili küçələr, eləcə də məhəllədaxili yollar asfaltlanıb. Piyadaların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yeni səkilər inşa edilib, mövcud səkilərə tamet daşlar döşənib. Mərkəzi küçələr boyunca hasarlar tam suvanaraq dekorativ rənglərlə boyanıb.

Xüsusən də illərdən bəri Corat qəbiristanlığının ortası ilə açıq şəkildə çirkab və qrunt suları axıntısının qarşısının alınması sakinlərin razılığına səbəb olub. Zakir müəllimin bilavasitə köməkliyi və daxili imkanlar hesabına bu məsələnin həllinə nail olduq. Çirkab axıntı suları ümumilikdə 1200 poqonmetr uzunluğunda 400 və 200 millimetrlik borularla mərkəzi kanalizasiya-drenaj xəttinə qoşulub. Qəsəbənin simvoluna çevrilmiş şimal girəcəyindəki "Cürət" qala kompleksində təmir-bərpa və dekorativ işıqlandırma işləri aparılıb. Abadlıq və quruculuq işləri qəsəbənin simasını yaxşılığa doğru xeyli dəyişib.

Sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün parklar və yeni abad məhəllələr yaradılıb. Qəsəbə ərazisində yaşıllıqlar salınıb, dekorativ ağac və gül kolları əkilib. Qəsəbədə xeyir-şər evinin olmaması sakinlərin haqlı narazılığına səbəb olurdu. Artıq mərasim evi tikilərək hazır vəziyyətə gətirilib, yaxın vaxtlarda sakinlərin istifadəsinə veriləcək.

Ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar olaraq Sumqayıt Bələdiyyəsi şəhər ərazisində həm yaşıllıq sahənin salınması, həm də ətraf mühitin tullantılardan qorunması işlərini uğurla icra edir. Şəhərdə yol infrastrukturu da davamlı şəkildə yenilənir. Görülən işlər çərçivəsində ötən ay 20-ci mikrorayon ərazisindəki Mirəli Qaşqay küçəsi asfaltlanıb. Son olaraq şəhid Ramil Quliyev küçəsi abadlaşdırılıb.



Bu işlər Sumqayıt Bələdiyyəsi tərəfindən həyata keçirilib. Hazırda Milli Qəhrəman Əlyar Əliyev, Şəhid Ramil Quliyev küçələrində asfalt örtüyü təmir olunur. Onu da deyək ki, abadlaşan küçələrdə şəhərin 75 illik yubileyi münasibətilə yeni avtobus dayanacaqları quraşdırılır. Bu layihə çərçivəsində Sumqayıt stansiyası və Hacı Zeynalabdin qəsəbəsi ərazisində analoji işlər sürətlə davam edir.

Şəhər icra hakimiyyətindən bildirildi ki, Sumqayıtda yol infrastrukturunun yenilənməsi ilə bağlı geniş tədbirlər planı mövcuddur. Bu plan çərçivəsində şəhərin müxtəlif ərazilərində mərhələli şəkildə yolların asfaltlanması işləri aparılır. Son illərdə 100-dək prospekt və küçədə, neçə-neçə məhəllə və mikrorayonda ardıcıl olaraq asfaltlama işləri aparılıb. Yeni yolların salınması da unudulmayıb, şəhərdə 4 yeni yol salınıb.

Ötən aylarda "Sahil" küçəsinin asfalt örtüyü başdan-başa yenilənib. İndi də digər ərazilərdə iş gedir. Əsas məqsəd şəhər sakinlərinin rahat və təhlükəsiz hərəkətini təmin etməkdir. Bu məqsədlə Türkiyə istehsalı olan 200-dən çox müasir avtobus gətirilərək marşrutlara buraxılıb. Xırda tutumlu, istismara yararsız, ekoloji çirklənməyə səbəb olan nəqliyyat vasitələri xətlərdən çıxarılıb.

**Sumqayıt Bələdiyyəsinin sədri vəzifəsini icra edən Orxan Adıgözəlzadənin dediyinə görə, bu özünüidarə qurumunun əsas məqsədi vətəndaş məmnunluğunun təmin edilməsi üzrə layihələri durmadan həyata keçiməkdir:**

– Yubiley ili üçün təsdiqlənmiş sosial-iqtisadi proqrama uyğun olaraq, şəhər rəhbərliyinin hərtərəfli dəstəyi ilə sakinlərin müraciətlərinə əsasən bir sıra ərazilərində abadlıq işlərini reallaşdırırıq. Ötən aylarda bələdiyyənin xəttilə 23, 26, 30, 35 saylı məktəblərə, 47, 54, 71 saylı uşaq bağçalarına və 43 saylı seçki dairəsinə aparan yollara asfalt vurulub. Bundan sonra da çalışacağıq ki, könlü gənclik ruhu aşıb-daşan 75 yaşlı Sumqayıtin simasına özəl naxışlar vuraq.

Şəhərdə su basmış və üfunət yayan zirzəmilərin, "aşsüzən"ə dönmüş dam örtüklərinin qısa müddətdə əsaslı təmirini də əhali razılıqla qarşılayıb. İnamla demək olar ki, hazırda Sumqayıtda çox işlək, çevik şəhər təsərrüfatı mexanizmi var və bu, əsl nümunə sayıla bilər. Dövlətin qayğısı, şəhər rəhbərliyinin səyləri sayəsində abadlıq-quruculuq, yaşıllaşdırma, sanitar təmizlik və sair işlər əzmlə həyata keçirilir.

Sumqayıt şəhər Təmizlik Departamentinin maşın və mexanizmləri bütün gün ərzində işləyir. Küçələrdə 26 ədəd "Ford" markalı, xüsusi təyinatlı – özüboşaldan, yol süpürən və zibilyığan texnikaya hər zaman rast gəlmək olur. Hazırda şəhərin yaşayış massivlərində 230 tullantı qəbulu məntəqəsi var ki, onlarda da 1000-dən çox konteyner düzülüb.

"Göydələnlər şəhəri" sayılan Sumqayıtda ölkə rəhbərliyinin diqqəti sayəsində qısa müddətdə lift təsərrüfatı da yenilənib, istismar müddəti ötmüş 600-ə yaxın lift yenisi ilə əvəz olunub. İndi daha 150-dən çox liftin yenilənməsi prosesi davam edir. Artıq Sumqayıtda liftlərin intellektual idarəetmə mərkəzi fəaliyyət göstərir. Lift xidmətində "Ağıllı şəhər" (Smart City) vizyonu konsepsiyası çağdaş texnologiyalardan səmərəli istifadə baxımından önəmli olmaqla bərabər, gənclik şəhərinin ölkə üzrə bir ilkə imza atması kimi əhəmiyyətlidir.

Bu gün Sumqayıt həm də xarici tələbələrin həvəslə gəlib, ali təhsil aldığı şəhərdir. Sumqayıt Dövlət Universitetində yeni təqaüd proqramı üzrə daha 100 əcnəbi bakalavr və magistra təhsil üçün şərait yaradılacaq. Gənclik şəhərinin yetirmələri də təhsildə xüsusilə fərqlənirlər. Hər il ali məktəblərə qəbulda Sumqayıt öndə gedir. Elə bu günlərdə Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun oğlu Davud Həşimov 4 xarici ölkədə yerləşən 7 universitetdən qəbul təklifi alıb. Davud uşaqlıqdan kompüter sahəsinə marağı olduğunu bildirib. Bu, general atanın da arzusu olub...

Bəli, Sumqayıt gerçəkləşən arzular şəhəridir. Hər səhər dənizdən boylanan günəş bu arzuları nura qərq edir. Xəzərin ləpələri, dalğaları isə sanki şəhərə ahəngdar rapsodiya bəstələyir. Bütün bunları fərəhlə seyr edir və duyğularımı şeir dili ilə ifadə etməkdən özümü saxlaya bilmirəm:

*Bu şəhərdə suda balıq kimiyəm,*
*Vüqarlıyam bu məkanla, bu adla.*
*Bağlarının aşıb-daşan gülləri*
*Ətir saçır min arzuyla, muradla.*

*Küçələri misra-misra düzülüb,*
*Göydələnlər nida işarəsidir.*
*Bu şəhəri vəsf eləyən küləklər*
*Mənim sevən ürəyimin səsidir.*

*Xəzər boyda güzgü düşüb bəxtinə,*
*Sahilinin nur selində göz gülür.*
*Könlümüzün paytaxtıdır Sumqayıt –*
*Tablo kimi işıq-işıq, cizgili!*

*Günəş yanır qızlarının üzündə,*
*Oğulları - yurdun arxa-dayağı!*
*Ürək-ürək, arzu-arzu yüksəlib,*
*Durur böyük bir abidə sayağı!*

***Əli NƏCƏFXANLI***
***XQ***

# Kulinarlarımız Pakistanda birincilik qazanıblar

**Bakı Kulinariya Assosiasiyasının aşpaz komandası beynəlxalq müsabiqədə ölkəmizi uğurla təmsil edib. Onlar Pakistanın Lahor şəhərində 16-cı dəfə gerçəkləşən “Sirr qutusu” (Salonniere Mystery Box) beynəlxalq müsabiqəsinin çempionat mərhələsində milli yeməklərimizi müasir üslubda ilk dəfə təqdim ediblər.**






Bakı Kulinariya Assosiasiyasının prezidenti İlkin Əkbərzadə müsabiqə barədə XQ-yə məlumatında qeyd etdi:

–Komandamız mütəmadi olaraq bir çox beynəlxalq müsabiqələrdə iştirak edir. Qatıldığımız bütün tədbirlərdə Azərbaycan mətbəxi nümunələrini nümayiş etdirməklə, ləziz təamlı yeməklərimizi tanıdırıq. Bununla məişət mədəniyyətimizi də təbliğ edirik. Hər müsabiqədə nümayiş etdirdiyimiz yeməklərimizin dadı ziyarətçilərdə böyük maraq yaradır. Eyni zamanda, yeməklərin tarixi barədə də qonaqları məlumatlandırırıq.

Azərbaycan kulinariyası tarixinə və özünəməxsusluğuna görə, digər dövlətlərin mətbəxindən fərqlidir. Milli xörəklərimiz ləzizliyi və hazırlanma texnologiyası baxımından da seçilir. Yeməklərimizi hazırlayarkən müasir kulinariyanın tələblərini də nəzərə alırıq. Buna görə də, qatıldığımız hər bir beynəlxalq müsabiqədə yüksək keyfiyyət göstəriciləri ilə öndə olmağa çalışırıq. Bu müsabiqənin çempionat mərhələsində peşəkar ustalarımızın hazırladığı milli yemək nümunələri ilə birinci yeri tutduq. Azərbaycan milli yeməklərini müasir üslubda təqdim edən komandanın məharəti böyük maraq doğurdu.

**Bu yarışda komandamızın ilk dəfə iştirak etdiyini deyən İlkin Əkbərzadə söylədi ki, 4 nəfərlik heyət qızıl medal qazanıb.**

–Bu müsabiqə dünyada ən böyük kulinariya müsabiqələrindəndir. Komandamız Pakistanın 20 komandası ilə yarışırdı. Aşpazlarımızın peşəkarlığı onlara birincilik qazandırdı. Bizim komandanın xörəkləri müsabiqədə heyranlıq doğururdu. Bütün kriteriyalar yerində idi. Yeməklərin hazırlanmasından, gigiyena qaydalarına əməl edilməsinə aşpazlarımız həssaslıqla yanaşırdı. Yarışda 5 növ milli yemək nümunəsi təqdim etdik. Birinci yeməyimiz cənub mətbəxinə aid “Ləvəngi” idi. Yanında gül püresi və qarnir olaraq gavalı sousu da qoyulmuşdu. Bütün ərzaqları Bakıdan götürmüşdük. İki cür içki hazırlamışdıq. Biri reyhanlı və çiyələkli şərbət, o biri isə südlə qatışdırılmış ananaslı kokteyl idi. Düzdür, ikinci içki Pakistana aiddir. Biz onu elə hazırlamışdıq ki, özləri də çox bəyəndilər. Sonra Xəzər dənizinin ağ balığından modern şəkildə şorba bişirdik. Hisə verilmiş qaymaqlı toyuq və qızıl balıqdan nümunələr də təqdim etdik.



Müsahibimizin dediklərinə əlavə olaraq bildiririk ki, müsabiqə Pakistan Beynəlxalq Qida Sənayesi Sərgisi çərçivəsində reallaşıb. Yarışmada ölkəmizi komandanın kapitanı Sərxan İmanli, üzvlər Emin Əliyev, Elxan Mirzəyev və İlqar Əhmədov təmsil ediblər. Çempionata dəvət olunmuş hakimlərdən biri də Bakı Kulinariya Assosiasiyasının prezidenti İlkin Əkbərzadə olub.

Xatırladaq ki, assosiasiyanın aşpazlar komandası bu il Ümumdünya Aşpazlar Birliyinin dəstəyi ilə təşkil olunmuş qitə çempionatında “Karaçı Aşpazlar Assosiasiyası”nın qızıl medalını da qazanıb.

*Ceyhun ALIŞLI*
*XQ*

Günün sualı

# İstiyə düşsə ürək – ona nə edər kömək?

**Şamaxı Astrofizika Rəsədxanasının məlumatına görə, isti havalar davam etsə də, geomaqnit sahəsinin avqustun 14-dən sonra sakit səviyyəyə dönəcəyi gözlənilir. Havanın temperaturunun 40 dərəcəni keçməsi ürək-damar sisteminə mənfi təsirini istər-istəməz göstərir. Bu təsirə, hətta sağlam və gənc insanlarda da rast gəlinir.**

Ürək xəstəlikləri olan insanlar isti, günəşli havalarda sağlamlıqlarına daha diqqətli olmalı, günün müəyyən saatlarında bayıra çıxmamalıdırlar. Çünki havanın temperaturu qalxdıqca, ürək problemi olanlarda təzyiqin artması, qan laxtalanması, infarkt və insult riskinin tez-tez rast gəlinməsi müşahidə edilir.

**Havaların isti keçməsi ürək- damar xəstələrinə necə təsir edir? Bu sualla Elmi-Tədqiqat Kardiologiya İnstitutunun ürəyin işemik xəstəlikləri şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mədinə Əzimovaya müraciət etdik.** Kardioloq-ekspert, həm isti havalar, həm də maqnit dalğalarının insan orqanizminə təsiri ilə bağlı ətraflı məlumat verdi:

– Havaların isti keçməsi ilk növbədə ürək xəstəliklərini kəskinləşdirir. İnsultların, hipertoniyanın və infarktların, təxminən, 70 faizi məhz belə isti havalarda – maqnit burulğanları olan zaman baş verir. Ümumiyyətlə, dünya kardioloq– alimlərinin fikrincə, orqanizm instinktiv olaraq, maqnit sahəsinin dalğalanmalarını həyat üçün təhlükə kimi qəbul edir. Çünki bu, təzyiqin artmasına və digər simptomlara səbəb olur. Bunlar arasında ən çox rast gəlinənlər baş ağrısı, başgicəllənmə, kardiopalmus (səbəbsiz depressiya), təngənəfəslik, yorğunluq və ya əksinə, hiperaktivlik, asteniya (əzələ zəifliyi), sümüklərdə ağrılardır.

Bu əlamətlərin başvermə səbəbinə gəlincə deyə bilərəm ki, maqnit sahəsinin dalğalanmaları zamanı kapilyarlarda (kiçik damarlarda) qan axınına manea yaranır və toxumaların oksigen aclığı baş verir. Məhz qanda oksigen çatışmazlığından başgicəllənmə, ürək nahiyəsində ağrılar, gözlərin qaralması və hətta, şüurun itməsi əlamətləri yaranır.

Bundan başqa, oynaqlarda ağrılar başlayır. Çünki xarici (atmosfer) təzyiqin azalması oynaqlarda daxili təzyiqi çoxaldır. Bu, oynaq kapsulunun və bağların uzanması ilə əlaqədardır ki, bu da ağrıları artırır. İnsanlar, həmçinin yuxu pozulmasından, depressiyadan, diqqətsizlikdən, əsəbilikdən, narahatlıqdan şikayətlənirlər. İstidən damarlar genişlənir ki, bədənin artan istiliyini ətrafa ötürsün. Bundan qaynaqlanaraq bədəndə kapilyar partlamaları, ulduzcuqlar, göyərmələr görülə bilər. Ayaqlarında varikoz olanların ayaqlarında ağırlıq, ağrı, baş ağrıları baş verə bilər. Venoz qan problemi olanlarda aşağı ətraflardan başa və əks istiqamətə, qan dövranında çətinlik yaranır. Ona görə onların ürəyinə və başına isti havalarda normal qan axını olmur.



*–Belə xəstələr isti günlərdə neyləməlidirlər?*

– İsti havada insan daha çox tərləyir və bu zaman bədən duz və su itirir, kalium, maqnezium yuyulur. Qanın tərkibi maye–plazmadan və digər qan komponentlərindən ibarətdir. İsti havanın təsirindən tər və tənəffüs vasitəsilə bədəndəki suyun bir hissəsinin xaric olması qanın tərkibini dəyişdirir. Belə ki, maye itkisi qanın qatılaşmasına səbəb olur. Bu da öz növbəsində tromb yaranmasına və lazımi tədbirlər görməyəndə infarkt və insulta şərait yaradır. Damar problemi olanlarda ödem, bədəndə şişkinlik, maye durğunluğu yarana bilər.

Ürəyi normal insanlarda isti havada, əslində, təzyiq aşağı düşməlidir, çünki damarlar genişlənir, qan axını sərbəst olur. Lakin qan dövranında balansı düzəltmək üçün daha tez-tez yığılıb açıldığından taxikardiya, ürəkdöyünmə, ritmin artması baş verir. Ürəyin əsas koronar damarlarında dəyişiklik yarananda, yaxud öncədən varsa, onlar istiyə uyğun olaraq genişlənir və qanı qova bilmir. Bu zaman ürək və ya beyinin işemiyası, infarkt riski artır. Arterial hipertenziya xəstələrində təzyiqin göstəriciləri daha da yüksələ bilir. Qanda elektrolitlərin miqdarının çoxalması aritmiyanı qıcıqlandırır.

***– Maqnit qasırğası, eləcə də isti hava ən çox kimlərə təsir edir?***

– Əsasən, ürək xəstəliyi olan insanlar və qan təzyiqinin aşağı, yaxud yuxarı həddə olmasından daim əziyyət çəkənlər maqnit fırtınasını daha tez hiss edirlər. Belə havalar təzyiqlə bağlı xroniki xəstəlikləri olan insanlara çox təsir edir. Elə insanlar var ki, havadan asılı olurlar. Belə ki, havanın dəyişəcəyini, yağış yağacağını öncədən hiss edirlər. Onlar da maqnit qasırğasından əziyyət çəkirlər. Bundan başqa, hava dəyişikliyi hamilə qadınlara, körpələrə və yaşlılara da neqativ təsir göstərir. Onu xüsusilə qeyd etməliyik ki, maqnit qasırğası havası təmiz, texnologiyadan müəyyən qədər uzaq kənd, dağ yerlərinin əhalisinə təsir etmir. Ondan əsasən, böyük şəhərlərin sakinləri əziyyət çəkir.

***– İsti havanın mənfi təsirini azaltmaq üçün tövsiyələriniz.***

– Maqnit qasırğasının insana mənfi təsirini azaltmaq üçün əvvələ, texniki avadanlıqlarla işləmə vaxtını qısaltmaq lazımdır, çünki maqnit fırtınaları təkcə insanlara təsir etmir. Maşın sürənlər ehtiyatlı olmalıdırlar, çünki maqnit qasırğaları zamanı konsentrasiya və diqqət azalır. Stress və emosional partlayışlardan çəkinmək lazımdır. Həddindən artıq yüklənməmək üçün xüsusi konsentrasiya tələb edən işlə məşğul olmaq, artıq fiziki fəaliyyətdən imtina etmək, bunun əvəzinə, gimnastika ilə məşğul olmaq, daha çox gəzmək faydalıdır. Saat 12.00 ilə 16.00 arasında bayırda olmamağa fayda var. Bu, insanları Günəşin ultra-bənövşəyi şüalarından qoruyar.

Tez-tez kontrastlı duş qəbul etmək, otağı mütəmadi olaraq havalandırmaq lazımdır. Zərərli, həddindən artıq duzlu və yağlı yeməklərdən, spirtdən istifadə etməmək, qoz-fındığa, meyvələrə, tərəvəzlərə, təzə sıxılmış şirələrə və suya üstünlük verilməlidir. Bu qidalar orqanizmdən maye ilə birlikdə xaric olunan kalium və maqneziumun bərpasına kömək edir.

Ürək problemi olanlar su qəbulunu artırmalı, sərin, kölgəli, rahat yerdə olmalı, çox uzanmamalı, hərəkətdə olmalı, çölə çıxmamalı, fiziki iş görməməli, təzyiqi, şəkəri, mayeni nəzarətdə saxlamalıdırlar. Həddindən artıq yemək, bədən üçün əlavə stressdir. Yuxu cədvəli hazırlamaq, pəhrizləri möhkəm bağlayaraq adi günlərdəkindən çox yatmaq tövsiyə olunur.

*Müsahibəni hazırladı:*
*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Hər kitab bir dünyadır

**Ulu atamız – Alp Ər Tonqa**




**“Ədəbiyyat qəzeti”nin baş redaktoru filologiya üzrə fəlsəfə doktoru Azər Turanın “Türkün atası Alp Ər Tonqa (Azərbaycan və Anadolu fatehi)” kitabı çap olunub.**

Kitab Atatürk Mərkəzində nəşrə hazırlanıb, “Elm və təhsil” nəşriyyatında çap edilib. Redaktoru Dəyanət Osmanlıdır. Akademik Nizami Cəfərov kitabın ön sözündə yazır: “Azər Turanın "Türkün atası Alp Ər Tonqa (Azərbaycan və Anadolu fatehi)" kitabı həcmcə elə böyük olmasa da, əhatə etdiyi məsələlərin genişliyinə, ehtiva olunan fakt, mülahizə və mövqelərin rəngarəngliyinə, ən başlıcası isə, əsaslandığı elmi-metodoloji prinsiplərin mükəmməlliyinə görə kifayət qədər fundamental əsərdir. Və bu daxili fundamentallıq özünü, hər şeydən əvvəl, onda göstərir ki, müəllif nə ayrı-ayrı rəqəmlərin dəqiqləşdirilməsinə, nə bu və ya digər coğrafi koordinatın ora-bura çəkilməsinə, nə də etimoloji janqlyorluğa meyil göstərmədən, birbaşa mötəbər epik miqyaslarla işləməyə üstünlük verir”.

Azər Turan qədim ümumtürk eposu “Oğuz kağan” – Herodot “Tarix”i – Firdovsi “Şahnamə”si – “Oğuznamə”lər xətt-xronologiyası ilə Madiva – Franxrasyan – Madyes – Əfrasiyab – Alp Ər Tonqanın tərcümeyi-halını elə panoramlı ölçülərlə bərpa edib ki, tarixdə möhtəşəm rol oynamış bütöv və hər cəhətdən əzəmətli bir etnosun bioqrafiyası dövrdən-dövrə təhrif olunmuş şəkildə yox, necə varsa, elə görünür.

**“Həyatın 12 qaydası”**




**Məşhur kanadalı klinik psixoloq Cordan Peterson “Həyatın 12 qaydası” adlı kitabında “Müasir dünyada hər kəs nəyi bilməlidir?” kimi çətin suala cavab verməyə çalışır. Müəllif qədim ənənələrin uzaq dövrlərdə qalmış əlçatmaz həqiqətlərini qabaqcıl elmin bugünkü kəşfləri ilə heyrətamiz şəkildə birləşdirir.**

“Qanun” Nəşrlər Evinin “Özünüinkişaf” silsiləsindən Əli Nəcəfxanlının tərcüməsində təqdim etdiyi bu kitab vasitəsilə doktor Peterson mücərrəd əxlaqi prinsiplər, psixologiya, mifologiya, din və şəxsi təcrübələr haqqında yazılmış esselər vasitəsilə insanlara faydalı həyat düsturları verir. Birləşmiş Krallıqda və Kanadada çap olunmuş kitabın qısa müddətdə 3 milyondan çox nüsxəsi satılıb.

Müəllif incə yumoru və təəccüb doğuran mətləbləri elə izah edir ki, anlayırsan: – Çox asanlıqla hər kəsi tənqid edənləri niyə dəhşətli tale gözləyir? Küçədə pişik görəndə onu niyə sığallamaq lazımdır? İnsanlar qəzəbli, lovğa və kinli olanda necə dəhşətli yola düşdüklərini bilirlərmi? Kitabda belə hikmətli suallara psixoloji baxımdan əsaslandırılan cavablar tapmaq mümkündür. Əsərin başlıca məziyyəti ondan ibarətdir ki, kitabda inandırıcı şəkildə yer alan mülahizələr insanı düşünməyə vadar edir.

**“Ana, sən mələkmisən?”**

**Şair-tərcüməçi, Türk Ədəbiyyatı Vəqfinin fəxri üzvü İbrahim İlyaslı çağdaş türk uşaq şeirinin ünlü ismi, şair Bestami Yazqanın “Ana, sən mələkmisən?” kitabını Azərbaycan türkcəsinə uyğunlaşdırıb. Kitab Bakıdakı “Qələm Nəşrlər Evi”ndə işıq üzü görüb.**




AYB Poeziya bölməsinin rəhbəri və Əli Kərim adına Sumqayıt Poeziya Evinin direktoru olan şair İbrahim İlyaslı indiyədək rus poeziyası nümunələrinin bədii tərcüməsi, eləcə də türkdilli xalqların ədəbiyyatından seçmələri dilimizə mükəmməl uyğunlaşdırması ilə tanınıb.

Bestami Yazqan çağdaş türk uşaq ədəbiyyatının ünlü simalarındandır, dəfələrlə ölkəsində “İlin yazarı” adına layiq görülüb. Kirpiyi ilə od götürərək, balasını sevə-sevə böyüdən, mələk kimi başı üstündə dolaşıb hifz edən analar haqqında gözəl uşaq nəğmələri bir oxunuşdan yadda qalır. Yeni topludakı bədii nümunələr “Ana təravətli şeirlər” başlığı altında toplanıb. Dünyanın müqəddəs varlığı olan anaya övlad sevgisi, onun fədakarlıqlarına qədirbilənlik duyğuları ilə yazılan şeirlər bilavasitə uşaqlarda vətənpərvərlik və mənəvi dolğunluq hissləri aşılayır.

***Haqqın qəbul etdiyi***
***Ən gözəl diləkmisən?***
***Ətrafımda dolaşan***
***Şirin bir mələkmisən?***

İbrahim İlyaslının çevirməsində Yazqanın belə səmimi ifadələrlə süslənmiş, təbii və axıcılığı ilə diqqət çəkən şeirləri ilə tanış olduqca oxucuda bu nümunələrin sanki bizim öz ləhcəmizdə yazıldığı qənaəti güclənir. Kitabın rəssamı Sevgi İçigendir.

*Ə. DOSTƏLİ*
*XQ*

# “Qərbi Azərbaycan aşıqları” diski hazırlanır

**Azərbaycan Aşıqlar Birliyində “Çağdaş Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı” adlı layihə üzərində işlər yekunlaşıb.**

Bu barədə XQ-yə məlumat verən qurum sədrinin müavini, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli söylədi ki, layihənin məqsədi sabiq Qərbi Azərbaycandan olub, ötən əsrin sonlarında öz dədə-baba yurdlarından didərgin salındıqdan sonra ölkəmizin müxtəlif guşələrində məskunlaşmış aşıqların musiqi repertuarının daha da zənginləşməsinə yardımçı olmaq, onların ifalarından ibarət audiodisk hazırlayıb geniş ictimaiyyətə təqdim etməkdir:

– Birliyin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun rəhbəri olduğu layihə üzərində işlər icra planında nəzərdə tutulmuş qrafikə uyğun aparılır. Artıq ifaları audiodiskdə yer alan ustad və gənc aşıqların dəqiqləşdirilməsi, ifaların ayrı-ayrılıqda yazıya alınması kimi işlər arxada qalıb. Yaxın günlərdə isə audiodiskin çoxaldılması işləri yekunlaşacaq. Bu zaman Qərbi Azərbaycanın Göyçə, İrəvan, Zəngəzur, Dərələyəz, Ağbaba, Loru-Pəmbək kimi aşıq mühitlərini əhatə etməklə, musiqi və mətn seçiminə də xüsusi diqqət yetirilib. Qərbi Azərbaycan aşıq mühitləri ilə bağlı saz havalarına və vətənpərvərlik, tarixi yurd yerlərimizə həsr edilmiş şeirlərə üstünlük verilib.

Müsahibimiz əlavə etdi ki, audiodiskdə Əməkdar mədəniyyət işçiləri Fətulla Göyçəli və Bəhmən Göyçəli, eləcə də Faxfur Ağbabalı, Ələddin Musaoğlu, Xanlar Xəlilov, İxtiyar Qocayev, Vaqif İbrahimov kimi ustad aşıqlarla yanaşı, Rəfiqə Göyçəli, Nərmin Salahova, Famil̇ə Göyçəli, Elmədin Bayramlı, İmran Fikrətoğlu, Ləman Mirzəyeva, Ayaz Əzizoğlu və digər gənc istedadların ifaları da yer alır.

*C.BALABƏY*
*XQ*

# Kursk hücumu savaşın taleyini dəyişə bilərmi?

**Məlum olduğu kimi, avqustun 6-da Ukrayna hərbçiləri gözlənilmədən Rusiyanın Kursk vilayətinə hücum edərək 30-35 kilometrədək irəliləyə biliblər. 30-a qədər yaşayış məntəqəsi ələ keçirilib. Yüzlərlə hərbçi əsir götürülüb. On minlərlə sakin isə təxliyə olunub.**



Lakin 2 gündür ki, Rusiya Ordusu əraziyə əlavə qüvvələr yeridərək rəqibin vilayətin içərilərinə doğru yürüşünün qarşısını ala bilib. Vilayətdə bir neçə istiqamətdə ağır döyüşlər gedir. Döyüşdə tərəflərdən hansının üstün gəldiyini söyləmək çətindir. Bütün müharibələrdə olduğu kimi, burada da rəqiblər öz uğurlarını şişirtməyə çalışırlar.

Dünən Ukraynanın müdafiə naziri Oleksandr Sırski bildirib ki, bu ölkənin hərbçiləri hazırda Rusiyanın Kursk vilayətinin 1000 kvadratkilometrdən çox ərazisinə nəzarət edirlər. Bununla da ilk dəfədir ki, Ukrayna rəsmisi Kreml üçün sürpriz olan hərbi müdaxiləni təsdiqləyib. Bu vaxta qədər Ukrayna Müdafiə Nazirliyi Kursk əməliyyatı barədə susurdu.

Rusiya-Ukrayna savaşının gedişatında Kursk əməliyyatı keyfiyyətcə yeni mərhələnin başlanğıcı, yəni dönüş nöqtəsi ola bilərmi? Bu suala birmənalı cavab vermək çətindir. Əgər Ukrayna əsgərləri ələ keçirdikləri ərazilərdə istehkamlar quraraq möhkəmlənə və yeni uğurlu hərbi əməliyyatlara imza ata bilsələr, o zaman hansısa ciddi dönüşdən danışmaq olar.

Lakin bu da danılmaz bir faktdır ki, 1941-ci ildən, yəni Böyük Vətən müharibəsinin başlandığı gündən ilk dəfədir ki, Rusiyanın ərazisinə birbaşa hərbi müdaxilə baş verir. Təsadüfi deyil ki, Ukrayna Prezidenti V.Zelenski Kursk əməliyyatı ilə xalqa ənənəvi müraciətində xırda detallara varmadan "müharibənin təcavüzkar ərazisinə itələndiyini" bildirib.



Rusiya hərbçiləri hazırda Kurskda ciddi müdafiə tədbirləri görürlər. Əraziyə əlavə canlı qüvvələr və çox sayda texnika yeridilib. Ukrayna Ordusunun əlavə əraziləri ələ keçirməsinin qarşısı alınıb. Vilayətin ərazisində ağır, şiddətli döyüşlərin olacağı ehtimal edilir.

Sensasiyalı Kursk əməliyyatı başladığı andan qlobal medianın gündəmini zəbt edib. Bu barədə şərhlərdə hücumun Vaşinqtonun "xeyir-duası ilə" baş verdiyi ehtimal olunur. Hər halda, Ağ ev administrasiyası Kiyevin belə bir "cəsarətli addım" atmasına mane olmaq istəməyib. ABŞ-də 5 noyabr prezident seçkiləri keçiriləcək. Bu ərəfədə Ukraynanın qələbəsi hazırkı iqtidarın reytinqinə müsbət təsir göstərə bilər. Bunu nəzərə alaraq Vaşinqton Kiyevin qarşısına artıq əvvəlki məhdudiyyətləri qoymur.

Bir daha vurğulamaq istərdik. İndi bütün dünya Rusiyanın mümkün cavab addımlarını gözləyir. Bu tədbirlərin uğurlu, yaxud uğursuz olması müharibənin sonrakı taleyinə ciddi təsir göstərəcək. Görünən budur ki, hələlik Moskva özünü soyuqqanlı aparır və Kurskda ciddi bir hadisə baş vermədiyi mesajını daxili və xarici auditoriyaya çatdırmaq istəyir.

Rusiya Prezidenti Vladimir Putin baş verənləri şərh edərkən bildirib ki, Ukraynanın niyyəti Kursk bölgəsinə daxil olaraq diqqəti Moskvanın Ukraynanın şərqindəki Donbas bölgəsinə hücumundan yayındırmaq, eləcə də gələcək sülh danışıqlarında daha yaxşı mövqe əldə etməkdir.

Dövlət başçısı bu qənaətdədir ki, rəsmi Kiyevin Rusiyada sabitliyi pozmaq cəhdləri əbəsdir. V.Putinin sözlərinə görə, Rusiya xalqı Kremlin ölkənin təhlükəsizliyi ilə bağlı həyata keçirdiyi siyasəti tam dəstəkləyir. V.Putin Rusiya ordusuna qoşulmaq üçün könüllülərin sayının artdığını bildirib və Rusiyanın hərbi məqsədlərinə çatacağını vurğulayıb.

Müharibə böyük maliyyə vəsaitləri tələb edir. Bunu nəzərə alaraq Qərb Kiyevə hərbi və maliyyə dəstəyini artırmağa çalışır. Ukraynanın baş naziri Denis Şmıqal bildirib ki, Avropa İttifaqı (Aİ) dünən 4,2 milyard avroluq növbəti maliyyə yardımını Ukrayna hökumətinin hesabına köçürüb. Onun sözlərinə görə, bununla da 2024-cü ilin əvvəlindən Aİ tərəfindən ölkəsinə dəstək məqsədilə verilən vəsaitin həcmi 12 milyard avroya çatıb.

Sonuncu tranşın da qarşıdakı dövrdə maliyyələşdirilməsi nəzərdə tutulur. Qeyd edək ki, Aİ rəsmi Kiyevə 4,2 milyard avro vəsaitin ayrılması barədə qərarı avqustun 6-da təsdiqləyib.

Bu arada ABŞ-nin 45-ci prezidenti Donald Tramp milyarder İlon Maska müsahibəsində deyib ki, Rusiyanı Ukrayna hücumdan yayındırmaq mümkün idi, sadəcə Co Baydenin yanlış siyasəti və Ukraynaya rəhbərliyinin NATO-ya üzv olacağı barədə fikirləri savaşı labüd etdi və bu, on minlərlə günahsız ailə üçün ağır faciələrə yol açdı.

Tramp həmçinin deyib ki, Ağ evin rəhbəri olduğu dövrdə Rusiya Prezidentini dəfələrlə Ukraynaya hücum planından çəkindirməyə çalışıb və buna nail olub. İqtidarda olduğu dönəmdə cənab Putinlə "yaxşı münasibətləri"nin olduğunu xatırladan D.Tramp, eyni zamanda, bildirib ki, prezident seçildikdən sonra Rusiya-Ukrayna hərbi qarşıdurmasını dayandıra biləcək.

**P.S.** Dünən qəzetimiz çapa verilərkən məlum oldu ki, Rusiyanın Kursk vilayətində döyüşlər gedən daha bir rayondan əhali evakuasiya edilir. Belə ki, Rusiya KİV-i xəbər verir ki, Kurskun Velikosoldatsk rayonunun əhalisi Ukrayna Silahlı Qüvvələrinin irəliləməsi səbəbindən köçürülür. Bu rayon Kursk AES-ə gedən yolda yerləşir. Bu da o deməkdir ki, Rusiya Ukraynanın Kursk AES istiqamətində irəliləyəcəyini gözləyir.

***Məsaim ABDULLAYEV***
***XQ***

# *Yaxın Şərq:* Diplomatiya dalana dirənib

**Yaxın Şərq regionunda vəziyyət gərgin olaraq qalır. HƏMAS rəhbəri İsmayıl Haniyənin qətlindən sonra İran ilə İsrail arasında qarşılıqlı təhdidlərin şiddəti də getdikcə artır. Tehran HƏMAS rəhbərinin öldürülməsinə cavab verəcəyini bildirir, Təl-Əviv də bütün ssenarilərə hazır olduğunu diqqətə çatdırır. Böyük dövlətlər də regionda böyük müharibənin başlamaması üçün diplomatik səylərini gücləndirir.**

Qəzza zolağında atəşkəsin əldə edilməsi ilə bağlı aparılan diplomatik danışıqlar heç bir nəticə vermir. Diplomatiya da nəticə verməyəndə toplar işə düşür. Hər gün İsrailin və HƏMAS-ı dəstəkləyən "Hizbullah" hərəkatının bir-birinə raket zərbələri endirmələri barədə xəbərlər yayılır. İranın




da HƏMAS lideri İsmayıl Haniyənin Tehranda qətlə yetirilməsindən sonra İsraildən qisas alacağı barədə səsləndirdiyi bəyanatlar gərginliyi daha da artırır. Qərb, eləcə də İslam ölkələri İranı zərbə endirilməsi məsələsində təmkinli olmağa çağırsalar da, Tehran niyyətindən dönməyəcəyini bildirir. Son günlərdə dünya mətbuatında yayılan təhlili yazılarda vurğulanır ki, dünya Tehranın İsrailə qarşı hərbi əməliyyat keçirəcəyinə şübhə etmir.

Belə bir gərginlik fonunda Qərb ölkələri, xüsusilə də ABŞ regionda vəziyyətin nəzarətdən çıxmaması üçün diplomatik fəaliyyətini gücləndirir. Vaşinqton rəsmiləri hücum edəcəyi təqdirdə İrana cavab veriləcəyini vurğulamaqla yanaşı, Tehranı qisas əməliyyatından çəkindirməyə nail olmaq üçün Türkiyə ilə təmaslarını gücləndirir. Türkiyə KİV-i yazır ki, qardaş ölkənin xarici işlər naziri Hakan Fidan ABŞ-nin dövlət katibi Entoni Blinken ilə telefon danışığı zamanı Vaşinqtonu Qəzza ilə danışıqlar aparılması və daimi atəşkəsə nail olunması üçün İsrailə təzyiq göstərməyə çağırıb. Ankara əbəs yerə narahat olmur, çünki İran və "Hizbullah"ın cavabının bölgədəki vəziyyəti daha da gərginləşdirəcəyi və genişmiqyaslı regional müharibəyə səbəb ola biləcəyi ilə bağlı qorxular artır.



ABŞ diplomatik fəaliyyətini davam etdirməklə yanaşı, regiona hərbi qüvvələr də göndərir. Bu, ABŞ-nin İsraili İranın istənilən hücumundan qorumaq əzmini nümayiş etdirmək məqsədi daşıyır. Pentaqon rəhbəri Llyod Ostinin dediyi kimi, Vaşinqton müttəfiqini qorumaq üçün bütün mümkün addımları atacaq. İranın konkret olaraq nə etməyi planlaşdırdığı hələ də bəlli deyil. Apreldə İranın Suriyadakı konsulluğuna zərbə endirdikdən sonra İranın İsrailə əvvəlki birbaşa hücumunda Tehran yüzlərlə pilotsuz təyyarə və müxtəlif növ raketlərdən istifadə etmişdi. Bölgədəki və onun hüdudlarından kənardakı müşahidəçilər İran və yaxud "Hizbullah" tərəfindən "intiqam hücumu"nun yaxın günlərdə baş verə biləcəyini güman edirlər.

***S.ELAY***
***XQ***

**Maraq dünyamız**

# Vəhşi dəvələrin nəsli kəsilməyəcək

## Monqolustan və Çinin əlçatmazlığında səhra nəhəngləri ciddi qorunur

**Əvvəlcə onu xatırladaq ki, planetimizdə vəhşi dəvələrin olduğunu ilk dəfə Rusiya səyyahı, coğrafiyaçı və naturalisti Nikolay Prjevalski (1839 – 1888) müəyyən etmiş və geniş məlumat hazırlamışdı. Onun bütün səyahətləri Çar tərəfindən dəstəklənirdi və hətta bu səyyaha general-mayor hərbi rütbəsi də verilmişdi. Prjevalski Asiyanın böyük ölkələrinə bir neçə dəfə səyahət etmiş, Monqolustan, Şimali Çin və Tibet ərazilərində özünəməxsus tədqiqatlar aparmışdı.**





Rusiyalı mütəxəssislərin hazırladığı dzen.ru saytında verilmiş "Havtaqay və ya vəhşi dəvə" (Хавтагай или дикий верблюд) (dzen.ru/a/ZLJVGs5-YjK-e2UB) adlı məqalədə qeyd edilir ki, məməlilər fəsiləsindən olan dəvələr min illər əvvəl əhliləşdirilsələr də, onların yaxın "qohumları" arasında hələ də vəhşi həyat sürənlər var. Bəzi mütəxəssislərin "vəhşi qozbellər", monqolların isə havtaqay adlandırdığı bu cütdırnaqlılar Çinin və Monqolustanın insanların məskunlaşmadığı ucqar dağlıq ərazilərdə yaşayırlar. Onlar sərt qayalarda və enişlərdə dağ keçilərindən də yaxşı gəzə bilirlər.

Yeri gəlmişkən, monqol mətbəxində içi nazik doğranmış ətlə doldurulan qalın piroq növlərindən birinə havtaqay deyirlər. Rus mütəxəssislər bu mətbəx nemətinin vəhşi dəvələrlə hansısa əlaqəsi olduğunu deyə bilmirlər.

Ev dəvələrindən xeyli dərəcədə arıq görünüşlü və çevik hərəkətli olan vəhşi dəvələr birhörgüclüdür. Ev dəvələrinin qabaq ayaqlarının dizində yük heyvanlarına xarakterik olan qabarlar var. Vəhşi dəvələr yük götürmədiyinə görə, həmin qabarlar yoxdur. Ağ, qara, qonur rəngli ev dəvələrinin sayı bilinməz dərəcədə çoxdur. Qonur rəngli vəhşi dəvələrin sayı isə nəslin tamamilə məhv ola biləcəyi dərəcədə azalmışdır. Halbuki Prjevalskinin sözlərinə görə onlar əvvəllər Mərkəzi Asiyanın bütün ölkələrində yaşayırdılar. Yaxşı ki, son zamanlar Çin və Monqolustan dövlətləri onların qorunmasını ciddi nəzarət altında saxlayırlar.

Havtaqaylar, adətən, sürü şəklində yaşayırlar və hər sürü ən çoxu 20 başdan ibarət olur. Ev dəvələri kimi onlar da uzun müddət susuz və qidasız yaşaya bilirlər. Buna baxmayaraq, su olan ərazilərə çatmaq üçün gündə yüz kilometr məsafə qət edirlər. Mütəxəssislər yazırlar ki, yetkin havtaqaylar ekstremal vəziyyətdə bir ay susuz qala bilirlər. Üstəlik, ev dəvələrindən fərqli olaraq, havtaqaylar duzlu – dəniz suyunu da içirlər və heç bir fəsad hiss eləmirlər.

Bundan başqa, vəhşi dəvələr imkan olduğu halda da az yeyirlər. Onların qida rasionu əsasən kollu bitkilərdən ibarətdir ki, həmin bitkiləri digər otyeyənlər çeynəyə bilmirlər.

Digər özünəməxsus xüsusiyyətlərindən biri də odur ki, hava çox isti olanda onlar ağızlarını açaraq küləyə qarşı gedir, ev dəvələrinin quyruğuna nisbətən daha uzun olan quyruqları ilə özlərini küləkləyirlər.

Çöldə, dağda onların düşməni çox olmasa da, yeganə düşmən çox təhlükəlidir. Əvvəllər onların yaşadığı ərazilərdə pələnglər də var idi. İndi isə həmin ərazilərdə vəhşi dəvələrin düşməni ancaq canavarlardır. Alimlər yazırlar ki, vəhşi dəvələr canavardan xilas olmaq üçün saatda 65 kilometr sürətlə qaça bilir. Müxtəlif dövrlərdə döyüş dəvələri kimi istifadə edilmiş ev dəvələri isə belə sürətlə heç zaman qaça bilməyiblər.

Təəssüf ki, bu gün havtaqayların sayı bir neçə yüz başdan çox deyil. Buna görə də onların nəslinin kəsilməsinin qarşısını almaq üçün mübarizələr aparılır. Ancaq ekoloqlar yenə də həyəcan zəngi çalırlar ki, havtaqayların nəsli tükənə bilər.

Xatırladaq ki, bu dəvələr "Qırmızı kitab"a iki adla – vəhşi dəvələr və havtaqaylar adıyla düşüblər. Vyana Universiteti alimlərinin 2010-cu ildə apardığı veterinar – tibbi tədqiqatların nəticəsi olaraq belə qərara gəlinib ki, havtaqaylar ev dəvələri ilə eyni növ yox, müstəqil növdür.

Çin alimləri isə 2007-ci ildəki genetik tədqiqatlar nəticəsində (havtaqayların DNK-sının öyrənilməsi nəzərdə tutulur) sübut etmişdilər ki, vəhşi dəvələr və lamalar ümumi əcdadlarından 25 milyon il əvvəl ayrılmışlar. Bu nəticəyə əsaslanan rus mütəxəssis deyir ki, əgər onlar 25 milyon il yaşayıblarsa, bundan sonra da xeyli müddət dözəcəklər.

***İ.QAÇAYEV***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 172 (30576) 14 avqust 2024-cü il, çərşənbə

# Paris Olimpiadasına nə qədər pul xərclənib?

**Paris-2024 Olimpiadası tarixə ən az pul xərclənən Oyunlar kimi də düşəcək. O, 2008-ci ildə Pekində keçirilən Oyunlardan dörd dəfə uçuz başa gəlib. Bəs bu necə mümkün olub?**




Birincisi, təşkilat komitəsi çoxdankı ənənəyə əməl etməyib, yəni böyük Olimpiya obyektlərin tikintisini həyata keçirməyib. Təşkilatçılar turnirləri mövcud arenalarda keçirmək qərarına gəliblər. Bu qərar təkcə qənaət xatirinə deyil, həm də tarixdə ən ekoloji cəhətdən təmiz oyun statusunu saxlamaq üçün qəbul edilib.

Olimpiada üçün yalnız Su İdmanı Mərkəzi və Olimpiya kəndi tikilib. Onların tikintisinə 9,7 milyard dollarlıq büdcənin, təxminən, 80 faizi xərclənib. Bununla belə, Paris artıq xərclərdən də xilas ola bilməyib. İlkin büdcə, təxminən, 6,8 milyard dollar olub. Təşkilatçılar xərclərin artmasının əsas səbəbinin inflyasiya olduğunu bildiriblər.

Təhlükəsizlik və personal xərcləri Olimpiadanın büdcəsini artırıb. Fransa Paris bölgəsində təhlükəsizlik üçün, təxminən, 45 min polis və hərbçi, həmçinin 50 min özəl podratçı cəlb edib. Eyni zamanda, hökumət işçilərinin tətillərinin qarşısını almaq məqsədilə mükafatlar və digər təşviqlərə əlavə vəsait ayırmağa razılaşıb.

Olimpiya büdcəsinə Sena çayının təmizlənməsi üçün ayrılmış 1,5 milyard dollar daxil edilməyib. Eyni zamanda, büdcədə metro xəttinin uzadılmasına yönəldilmiş 3,8 milyard dollar da nəzərə alnmayıb. Rəsmilər bunların həyata keçirilməsi planlaşdırılan və digər büdcələrdə nəzərə alınan layihələr olduğunu söyləyiblər.

Qış və Yay Olimpiadaları neçə milyard dollara başa gəlib?

2024-cü ilin qiymətləri ilə Soçi (2014) – 63,3, Pekin (2008) – 55,9, Pekin (2022) – 40,9, Tokio (2020) – 37,1, Rio-de-Janeyro (2016) – 25, Afina (2004) – 19,8, London (2012) – 17,9, Pxençxan (2018) – 16,5, Paris (2024) – 15, Vankuver (2010) – 9,5, Turin (2006) – 5,6 və Solt-Leyk-Siti (2002) – 3,1milyard dollarla yekunlaşıb.

***PÜNHAN***
***XQ***

Sağlamlıq

# “Real”– “Atalanta”: superkubok savaşı




**“Real” Avropa Superkuboku uğrunda oyunda “Atalanta” ilə qarşılaşacaq. Bu, Avropa futbol mövsümünün ilk böyük oyunudur.**

Aydındır ki, "Real" üçün yayın əsas hadisəsi Kilian Mbappenin transferidir. Eyni zamanda, Avropanın ən yaxşı komandasının tərkibində zədəlilər var. Məsələn, David Alaba hələ də zədəlidir, veteran Naço isə klubu tərk edib. Beləliklə, Karlo Ançelotti iki mərkəz müdafiəçisi, Antonio Rudiger və Eder Militao ilə qalıb. Braziliyalının ciddi zədəsi yenicə sağalıb. Tibo Kurtuanın heyətə tam qayıtması sual altındadır. Klub üçün yaxşı xəbər isə mövsümə əsas qapıçısı ilə başlamasıdır.

“Real” mövsümə hazırlığını ABŞ-də keçirib. Madridlilər yoldaşlıq oyunlarında “Milan” və “Barselona”ya məğlub olsa da, son qarşılaşmada “Çelsi” üzərində qələbə qazanıb. Bu oyunlarda Kilian Mbappe meydana çıxmayıb. Qarşılaşmaların heç birində üçdən çox qol vurulmayıb. Nəticə bu kimi görüşlər üçün xarakterik deyil.

“Atalanta” xarici ölkələrə hazırlıq səfərinə çıxmasa da, nəticələri ilə pərəstişkarlarını təşvişə salıb. Can Pyero Gasperininin komandası “Parma” və “Sent Pauli”yə böyük hesabla uduzub. Çempionlar Liqası mövsümü ərəfəsində Gasperini yəqin ki, təlim-məşq toplantışında oyunçuları çox yorub, ona görə də futbolçuların yoldaşlıq görüşləri üçün, sadəcə, enerjisi qalmayıb.

Rəsmi matçlarda “Atalanta” tamam başqa klub ola bilər. Əhəmiyyətli itkilərdən biri də mərkəz müdafiəçisi Kaleb Okolienin komandadan ayrılmasıdır. Həmçinin mərkəzi zonanın əsas oyunçusu Ten Kopmeyners yaxın vaxtlarda klubu tərk edə bilər. Ola bilsin ki, hollandiyalı, hətta avrokubok matçını da buraxsın.

Bu arada, “Atalanta” heyətini gücləndirib. Okolienin yerinə təcrübəli Ben Qodfrini dəvət etdilər, İtaliya millisinin hücumçusu Mateo Reteqini hücuma qatdılar, Nikolo Zaniolonu icarəyə götürdülər və nəhayət , əsas ulduz Çarlz De Ketelareni aldılar.

“Atalanta”nın böyük hesabla uduzmayacağını ehtimal etmək məntiqlidir. Baş məşqçi Can Pyero Gasperini cəsarətli futbol qurmağa qadirdir, həm də rəqibə boşluq, sərbəst oynamaq imkanı verməyəcək. Artıq o, “Bayer”lə Avropa Liqasının finalında bunu sübut edib.

***P.ƏFƏNDİ***
***XQ***



# “San Xose” gəmisinin xəzinəsi...

**Kolumbiya Antropologiya və Tarix İnstitutunun alimləri 1708-ci ildə Karib dənizində batmış İspaniyanın “San Xose” gəmisinin qalıqlarını yenidən tədqiq ediblər. Dənizin dibinə enən robot dağıntılar arasında yeni qızıl əşyalar, şüşə və keramik qablar, çuqun toplar və digər əşyalar aşkarlayıb.**

“San Xose” gəmisi 1696-cı ildə suya buraxılıb və 1708-ci ildə Kolumbiyanın Kartagena sahillərində ingilis donanması ilə döyüşdə batıb. 600 ekipaj üzvündən yalnız 11-i sağ qalıb. Gəmi ilə birlikdə “Yeni dünya”dan İspaniya kralına çatdırılması nəzərdə tutulan yüzlərlə ton xəzinə də batıb. Uzun illərdir ki, xəzinə ovçuları “San Xose” gəmisinin sərvətini əldə etməyə can atırlar.

Kolumbiya “San Xose”nin 2015-ci ildə tapıldığını bildirib. Lakin qalıqların dəqiq yeri açıqlanmır. Alimlər daha əvvəl sualtı dronların köməyi ilə gəminin qalıqlarını tədqiq ediblər. 2022-ci ildə artefaktların vəziyyətini və miqdarını qiymətləndirmək üçün dörd dəfə qəza yerinə eniblər. Bu ilin yazında Kolumbiya hökuməti dənizin dibindən artefaktların qaldırılması üçün ekspedisiyaya hazırlıqların başladığını elan edib. İyun ekspedisiyasında yeni tapıntılar aşkar olunub.

***S.ELAY***
***XQ***

# Gürcü məktəbinin azərbaycanlı qızıl medalçısı

**Bu kiçik yazımın qəhrəmanı bu il tələbə adını qazanmış, Gürcüstanda doğulub boya-başa çatan və orta məktəbi qızıl medalla bitirən Yeganə Əfəndiyevadır.**



Yeganə ziyalı bir ailədə doğulub. Atası Bəhruz Əfəndiyev Gürcustan Ali Hərbi Məktəbinin məzunudur. Hazırda Gürcüstan Daxili İşlər Nazirliyinin polkovnikidir. Anası Marneuli rayonu Alqet kəndindəki 3 nömrəli tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir.

Yeganə Rustavi şəhər 25 nömrəli tam orta məktəbi gürcü dilində bitirib. Birinci sinifdən əla qiymətlərlə oxuyub. Orta məktəbi qızıl medalla başa vurub.

Yeganə qəbul imtahanlarında da yüksək göstərici əldə edib. Onun arzusu Tbilisi Dövlət Universitetinin tibb və təbiət elmləri fakültəsində, yaxud Tbilisi Dövlət Tibb Universitetində təhsil almaqdır. Hər iki ali məktəbə yığdığı bal keçərlidir. Avqustun 20-də nəticələr bilinəcək.

Arzumuz budur ki, Yeganə Əfəndiyeva kimi yeniyetmə gənclərimiz öz biliyi, savadı, yüksək intellekti sayəsində yaşadıqları ölkələrdə nüfuz və söz sahibi olsunlar.

***Kəmalə ABDİNOVA***
***XQ***

# Bakının yay günləri


Miray və Günəş bacıları fəvvarə önündə...

*Foto Elşən AĞALARINDIR*

Hava

# Aranda yağmursuz, dağlarda yağış, dolu və duman

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 14-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 20-25, gündüz 30-35° isti olacaq.***



Atmosfer təzyiqi 757 mm sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 31-36°, dağlarda gecə 10-15°, gündüz 16-21° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

*2022-ci ildə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Cəfərov Cavidan Əlişir oğlunun adına verilmiş AR seriyalı, 053587 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*“SHG Azerbaijan” MMC-nin hüquqi varisliyi digər şəxsə keçmədən ləğv edilir. VÖEN 1504809341.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının iqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3611
SİFARİŞ 1767
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00